RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 111 (9278) 27 MAY 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## "Sizinlə birgə səylər göstərməyə hazıram"



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizə və Sizin simanızda dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ötən ilin sentyabrında Səmərqənd şəhərində bizim görüşümüz əsnasında əldə olunmuş razılaşmaların səmərəli həyata keçirilməsini və ölkələrimiz arasında bütün sahələrdə dinamik inkişaf tempinin müşahidə olunmasını görmək məni sevindirir.

Cənab Prezident, Siz Çin-Azərbaycan münasibətlərinin strateji dəyərini dəfələrlə vurğulamısınız, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə dair niyyətinizi fəal şəkildə ifadə etmisiniz. Mən bunu yüksək qiymətləndirirəm. İkitərəfli dostluq münasibətlərinin və əməkdaşlığın inkişafının sağlam və sabit məcraya istiqamətləndirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana tərəqqi, güc, qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Azərbaycanda humanitar minatəmizləmə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan edilir

### "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bugünkü konfransın mövzusu Azərbaycan üçün və ümumiyyətlə, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir. Ermənistanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasında yer almışdır.

2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoymuşdur. 44 günlük Vətən müharibəsində ölkəmiz tarixi Zəfər qazanmışdır. Ermənistanın otuzillik təcavüzü və işğalı nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovulmuş, etnik təmizləməyə məruz qalmış, kəndlərimiz, şəhərlərimiz yerləyeksan edilmiş, xalqımızın tarixi-mədəni, dini irsi məqsədyönlü şəkildə məhv edilmişdir.

Ermənistan bununla kifayətlənməyib işğal dövründə torpaqlarımıza ilkin qiymətləndirmələrə görə, 1,5 milyondan artıq mina basdırmışdır. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər 302 nəfər vətəndaşımız mina qurbanı olmuş, onlardan 57-si həlak olmuş, 245-i isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-ə yaxın vətəndaşımız minalardan zərər çəkmiş, onlardan 587-si həyatını itirmişdir. Mina qurbanlarının 358-ni uşaq, 38-ni isə qadınlar təşkil edir. Həmçinin Ermənistan keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirmişdir ki, bu da mina qurbanlarının gündən-günə artmasına səbəb olur. Azərbaycanın üzləşdiyi mina təhlükəsi kütləvi qırğın silahlarının doğurduğu dəhşət ilə müqayisə oluna bilər.

Öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın tezliklə könüllü, təhlükəsiz və ləyaqətli şəkildə doğma torpaqlarına qayıtması üçün işğaldan azad olunmuş ərazilərimizdə dərhal genişmiqyaslı quruculuq işlərinə start verilmişdir.

→ 2



# Qalib də razıdır, məğlub da

### Moskva görüşü Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistanla sülh sazişinin imzalanma prosesinə müsbət impuls verdi

Son bir ay ərzində Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində müxtəlif səviyyələrdə görüşlər keçirilir. Bütün bu danışıqlar, aparılan müzakirələr tərəfləri sülh sazişinə nail olmağa bir qədər də yaxınlaşdırır.

Danışıqlar prosesinə nəzər yetirsək görərik ki, hər iki tərəf bəzi məsələlərin həllində razılığa gəliblər. Məsələn, mayın 1-dən 4-nə kimi Vaşinqtonda ABŞ Dövlət katibi Entoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan XİN başçısı Ararat Mirzoyan arasında aparılan danışıqlarda nazirlər və onları müşayiət edən nümayəndə heyətinin üzvləri "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" ikitərəfli saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq da əldə etdilər.

Tərəflər arasında növbəti görüş isə mayın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə oldu. Brüsseldə sayca 5-ci görüşdə sülh müqaviləsi yenidən müzakirə edildi. Bu görüş də əvvəlki görüşlərdəki kimi Azəbaycanın diplomatik üstünlüyü ilə başa çatdı. İlham Əliyev, hər zaman olduğu kimi, mövqeyində dəyişikliyin olmadığını, sülh müqaviləsinin yalnız təklif etdiyi 5 məlum prinsip əsasında imzalana biləcəyini bəyan etdi.

→ 7

## Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur



### Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

- Hörmətli xanım Prezident!

26 May - Müstəqillik Günü münasibətilə Sizi və dost Gürcüstan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Əsrlər boyu dostluq, mehriban qonşuluq və harmoniya şəraitində yaşayan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur. Qarşılıqlı dəstək və etimad, sıx əməkdaşlıq, birgə həyata keçirdiyimiz irimiqyaslı regional layihələr strateji tərəfdaşlığımızı və müttəfiqliyimizi şərtləndirən başlıca amillərdəndir.

Bu gün ölkələrimizin rifahına və regionumuzun çiçəklənməsinə xidmət edəcək qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafı və yeni məzmunla zənginləşməsi, tərəfdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması üçün yaxşı imkanlar vardır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə Azərbaycan-Gürcüstan ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli qarşılıqlı fəaliyyətimizin bundan sonra da genişlənməsinə nail olacağıq.

Belə bir əlamətdar bayramda Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzv ölkələri ilə sıx iqtisadi əlaqələri var

Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 ildir uğurla inkişaf edir. Ötən il ölkəmizin Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar olub. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın təşkil edib. Gələcəkdə əmtəə dövriyyəsinin artması üçün də  böyük potensial var.

→ 7

## İlham Əliyevdən Paşinyana növbəti dərs

İlham Əliyev Paşinyanın üzərində tərs şillə effekti yaradan və faktlara əsaslanan sərrast cavabları ilə bölgədəki reallıqları bir daha iclas iştirakçılarının, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Paşinyan həyasızcasına iddia etdi ki, guya, İlham Əliyev çıxışında Hayastana qarşı ərazi iddiası səsləndirib.

Paşinyanın bu absurd ittihamına Prezident İlham Əliyev soyuqqanlıqla və tutarlı şəkildə cavab verərək vurğuladı ki, "Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır".

Göründüyü kimi, mayın 25-də Moskvada qonaq qismində iştirak etdiyi Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə keçirilən iclası zamanı Prezident İlham Əliyev bir daha diplomatik təcrübəsini nümayiş etdirdi, yüksək intellekti, siyasi iradəsi və reallığı əks etdirən haqlı mövqeyi ilə riyakar Paşinyanı qarşısında tərk-silah etdi, siyasi gedişləri ilə onu mat qoydu.

→ 7

## Dövlət başçısının diplomatik uğuru

Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdəki toplantısına qatılmasının, guya, milli maraqlarımıza cavab vermədiyini deyənlər cənab İlham Əliyevin oradakı çıxışına yenidən baxsalar pis olmaz. Həmin çıxış Azərbaycanın bütün platformalarda keçirilən görüşlərə nəticəni öncədən bilirmiş kimi niyə əminliklə razılıq verdiyinə aydınlıq gətirilməsi baxımından da az önəmli deyil.

Nikol Paşinyan bütün platformalarda Azərbaycana qarşı tam əsassız iddialar irəli sürür. O, Brüssel görüşlərində də Azərbaycan tərəfinin, guya, qeyri-qanuni olaraq Laçın yolunu bağlaması və orada yaşayan ermənilərin blokadada olması ilə bağlı iddialar irəli sürmüşdü.

Azərbaycanla Naxçıvan arasında əlaqənin qurulması mahiyyət etibarilə nəqliyyat əlaqəsidir. Laçın yolu kimi bu da kommunikasiyanın açılması deməkdir, lakin Ermənistan bunun qarşısını alır. Beləliklə, məsələləri də öz xeyrinə təhrif edir.

→ 8

## "İlham Əliyev Paşinyanı yenə "nokaut"a saldı"

### Moskva görüşündə erməni baş nazirin hərəkətləri

Moskvada  Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası zamanı Hayastanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevin nitqinə "şərh" verməyə çalışması gözlənilməz reaksiya doğurdu. Paşinyan diplomatik naşılığını növbəti dəfə büruzə verərək absurd fikirlər səsləndirməklə lağ obyektinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən verilən cavablarla nokaut vəziyyətinə düşən Paşinyan növbəti dəfə gülüş obyektinə çevrilərək biabır oldu.

→ 12

## Azərbaycanın meqalayihəsi



→ 8

## Düşmənin təxribatının qarşısı qətiyyətlə alınıb

May ayının 26-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb.  Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib. Sərhəd-döyüş məntəqəsində xidmətdə olan hərbi qulluqçuların sayıqlığı nəticəsində təxribat-diversiya qrupunun hərəkəti vaxtında aşkarlanaraq zəruri tədbirlər görülüb və nəticədə Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu saxlanılıb. Diversiya qrupunun digər üzvləri ərazinin mürəkkəb relyefə malik olmasından istifadə edərək geri qaçıblar. Əməliyyat şəraiti nəzarətdə saxlanılır.

# "Gürcüstan bizim üçün vacib tərəfdaş, müttəfiq və dost ölkədir"

## Gürcüstanın Baş naziri zati-aliləri cənab İrakli Qaribaşviliyə

Hörmətli cənab Baş nazir!

Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

105 il bundan əvvəl təxminən eyni vaxtda müstəqilliklərini elan etmiş Azərbaycan ilə Gürcüstan arasında əlaqələr tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən güc alır. Belə möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin bu gün dinamik və hərtərəfli inkişaf edərək hazırkı yüksək səviyyəyə çatması bizi sevindirir.

Gürcüstan bizim üçün vacib tərəfdaş, müttəfiq və dost ölkədir. Biz qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin bütün sahələrdə möhkəmlənməsinə və daha da dərinləşməsinə xüsusi əhəmiyyət veririk.

Əminəm ki, müvəffəqiyyətlə həyata keçirdiyimiz irimiqyaslı enerji, nəqliyyat layihələri, gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə, regionumuzun təhlükəsizliyinə və tərəqqisinə mühüm töhfə verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Məsim Məmmədov - Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri**

Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2023-cü il*

# Zəngilan rayonunda Horadiz-Zəngilan avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun ərazisində 61 km uzunluğunda mövcud Horadiz-Zəngilan avtomobil yolunun əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 31,4 milyon (otuz bir milyon dörd yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2023-cü il*

# Azərbaycanda humanitar minatəmizləmə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan edilir

## "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

*Əvvəli 1-ci səh.*

Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Gördüyümüz bəzi işlərin nəticələri artıq göz qabağındadır və siz Azərbaycanda səfərdə olarkən bunların şahidi olmusunuz.

Əfsuslar olsun ki, münaqişə bitdikdən sonra belə Ermənistan Laçın yolundan istifadə edərək Azərbaycan ərazilərinə minalar döşəməyə davam etmişdir. Ərazilərimizdə 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə mina aşkar edilmişdir.

Torpaqlarımızın kütləvi şəkildə minalarla çirklənməsi hazırda burada apardığımız bərpa və yenidənqurma işlərini ləngitməklə yanaşı, insanların həyat və sağlamlığına ciddi təhdid yaradır, uzun illər doğma torpaqlarına dönmək arzusu ilə yaşayan yüz minlərlə məcburi köçkünün hüquqlarının reallaşdırılmasına əngəl törədir.

Humanitar minatəmizləmə Azərbaycan dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu siyasətin əsası 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuşdur. Ulu Öndərin strateji baxışı, uzaqgörənliyi və müdrik siyasəti nəticəsində 25 il əvvəl Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik - ANAMA yaradılmışdır. ANAMA hazırda ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini həyata keçirən əsas qurumdur.

Üzləşdiyimiz mina probleminin nə qədər böyük və mürəkkəb, qarşımızdakı yolun isə hələ uzun olmasına baxmayaraq, ölkəmiz mümkün ən qısa müddətdə bunun öhdəsindən gəlmək üçün bütün gücünü səfərbər etmişdir. Bu gün Azərbaycanda minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Milli minatəmizləmə potensialımızın gücləndirilməsi istiqamətində davamlı olaraq iş aparılır və son iki il ərzində bu sahədəki imkanlarımız ciddi şəkildə artmışdır.

Qeyd etmək istərdim ki, minatəmizləmə fəaliyyətimizin 90 faizindən çoxu ölkəmizin daxili resursları hesabına aparılır. Biz eyni zamanda bir sıra xarici tərəfdaşlarımızla bu sahədə səmərəli əməkdaşlıq edir və bizə dəstək göstərən ölkələrə və beynəlxalq təşkilatlara buna görə minnətdarıq. Təəssüflər olsun ki, ümumi mənzərəyə baxanda xaricdən gələn dəstəyin həcmi hələ ki çox məhduddur.

Minalardan təmizlənmiş torpaqların gələcəkdə xalqımızın rifahına və tərəqqisinə mühüm töhfə verəcəyini və bunun geniş perspektivdə ölkəmizin ümumi inkişafı baxımından əhəmiyyətini nəzərə alaraq Azərbaycan minatəmizləmə fəaliyyətini dayanıqlı və davamlı inkişaf ilə birbaşa əlaqə kontekstində görür. Məhz buna görə Azərbaycanda humanitar minatəmizləmə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan edilir.

Azərbaycan özünün minatəmizləmə probleminin həlli ilə yanaşı, qlobal səviyyədə də humanitar minatəmizləmə prosesinə töhfə verir. Dünyada münaqişələrin və mina fəsadlarının artmasını nəzərə alaraq biz humanitar minatəmizləmənin BMT-nin qlobal 18-ci DİM-i kimi təsis edilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırda sədrlik etdiyimiz Qoşulmama Hərəkatında da Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması ideyası üzərində iş gedir.

Bugünkü konfrans mina problemi ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi, bu sahədə qabaqcıl təcrübə mübadiləsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr minatəmizləmə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə "minalardan təmizlənmiş dünya" miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2023-cü il*

# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılsın.

2. "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra - Xidmət) Laçın və Kəlbəcər rayonlarına əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

4. Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurası sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

7. Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2023-cü il*

# "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 167) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "Dövlət Mülki Aviasiya Administrasiyasının" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin" sözləri ilə əvəz edilsin.

2. 2.1-ci bənddə "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

3. 5-ci hissədə "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2023-cü il*

# *Ceyhun BAYRAMOV:* "Mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin artırılması vacibdir"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanın BMT çərçivəsində fəaliyyətindən məmnunluq ifadə edilib, ölkəmizin BMT çərçivəsində bir sıra istiqamətlərdə, xüsusilə də sülh və təhlükəsizliyin dəstəklənməsi sahəsində genişmiqyaslı təşəbbüsləri, o cümlədən sülhməramlılarımızın müxtəlif missiyalarda iştirakı yüksək qiymətləndirilib.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirən nazir Ceyhun Bayramov bu xüsusda Azərbaycanın donor ölkə qismində yaxından əməkdaşlıq etdiyini bildirib. Tərəflər həmçinin postmünaqişə dövründə bölgədə son vəziyyət barədə



fikir mübadiləsi aparıblar.

Azərbaycanın ərazilərinin 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmasına, bir milyona yaxın azərbaycanlının öz doğma torpaqlarından didərgin düşməsinə, işğalın Azərbaycanın sosial-iqtisadi rifahına dağıdıcı təsirlərinə baxmayaraq, ölkəmizin çətinliklərin öhdəsindən gəldiyi, yardım alan ölkədən donor ölkəsinə çevrildiyi qeyd olunub. COVID-19 pandemiyası dövründə ölkəmizin donorluq fəaliyyəti, qlobal pandemiya ilə mübarizə sahəsinə töhfələri barədə ətraflı məlumat verilib. Azərbaycan Respublikası tərəfindən bir çox ölkələrə səhiyyə, təhsil, texniki və humanitar sahələrdə göstərilən yardımlar diqqətə çatdırılıb.

Nazir daha sonra qarşı tərəfə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minalardan təmizləmə prosesi, Azərbaycan vətəndaşlarının Ermənistan tərəfindən kütləvi şəkildə basdırılmış minaların qurbanına çevrilməsi və minaların təmizlənməsi sahəsində Ermənistanın Azərbaycanla əməkdaşlıq etməməsi məsələsini diqqətə çatdırıb. Həmçinin işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri, məcburi köçkünlərin bölgəyə geri qayıdışı barədə qarşı tərəfi məlumatlandıran nazir ərazilərimizdə mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin artırılmasının vacibliyini vurğulayıb.

Ətraflı məlumata görə təşəkkür edən Aleksandr Zuyev qısa müddətdə ölkəmizdə böyük quruculuq işlərinin getdiyinin, iqtisadiyyatın davamlı inkişaf etdiyinin şahidi olduğunu, Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həll olunduğunu, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini qeyd edib. BMT nümayəndəsi ölkəmizdə "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda mühüm beynəlxalq humanitar konfransın keçirilməsinə görə təbriklərini çatdırıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# *Devid BEDNAR:* "Dini ayrı-seçkiliyin kəskin miqyas aldığı dövrdə Azərbaycanın sahib olduğu dəyərlər çox əhəmiyyətlidir"

Mayın 26-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ-nin Yuta ştatında yerləşən "İsa Məsih Sonuncu Günlərin Müqəddəsləri" Kilsəsinin 12 Həvarilər Kvorumunun üzvü Devid Bednarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir C.Bayramov çoxmillətli və multikonfessional ölkə olaraq Azərbaycanda bütün dinlərə etiqad edənlərin sülh və əmin-amanlıq içərisində yaşadığını deyib. Eyni zamanda hazırda Azərbaycanın mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qlobal mərkəzlərindən birinə çevrildiyini qeyd edib. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidentinin müəllif-



liyi ilə "Bakı prosesi" təşəbbüsü də daxil olmaqla, bir sıra qlobal əhəmiyyətli təşəbbüslərin irəli sürüldüyü, BMT-nin Sivilizasiyalararası Alyansının Qlobal Forumu da daxil olmaqla ölkəmizin bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi bildirilib.

Görüşdə həmçinin müxtəlif xalqların mədəni və dini irsinə hərtərəfli diqqət və qayğının təmin edildiyi Azərbaycanın nümunəvi dövlət-din münasibətlərinin mövcud olduğu ölkələrdən biri olduğu, belə bir şəraitdə xristian həmvətənlərimizin öz adət-ənənələrini, dini inanclarını, mədəniyyətlərini sərbəst şəkildə yaşadaraq ölkəmizin sosial-mədəni həyatının bütün sahələrində fəal iştirak etdikləri müqabil tərəfin diqqətinə çatdırılıb.

Nazir C.Bayramov eyni zamanda 30 illik dövrdə ərazilərimizin Ermənistan tərəfindən işğalı və etnik təmizləmə fəaliyyəti, eləcə də postmünaqişə dövründə ölkəmizin sülh və sabitliyin təmin edilməsi, bərpa və quruculuq işləri barədə məlumat verib. Ermənistan tərəfindən prosesə maneçilik cəhdləri və davam edən mina təhdidləri vurğulanıb.

Devid Bednar Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələri və dinlərarası dialoqa töhfə verən mühüm təşəbbüsləri barədə məlumatlı olduğunu söyləyib. Beynəlxalq müstəvidə dini, irqi və etnik zəmində ayrı-seçkiliyin xüsusilə kəskin miqyas aldığı hazırkı dövrdə Azərbaycan cəmiyyətinin sahib olduğu dəyərlərin olduqca əhəmiyyətli olduğunu bildirib. O, kilsənin müxtəlif proqramları çərçivəsində ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayıb.

Tərəflər görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına İtaliya Respublikasının adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Rusiya-Ukrayna müharibəsi ilə xarakterizə olunan həssas bir dövrdə çoxsaylı görüşlərimiz zamanı da təsdiq etdiyimiz kimi, Bakı və Romanı birləşdirən möhkəm əlaqələrin davamlı olaraq güclənməsini qeyd etmək mənim üçün xüsusi məmnunluq mənbəyidir.

Xalqlarımızı birləşdirən həqiqi dostluğa əsaslanaraq, əminliklə bildirirəm ki, biz qarşılıqlı maraq doğuran bütün sahələrdə çoxölçülü strateji tərəfdaşlığımızı dərinləşdirmək üçün bundan sonra da bütün imkanlardan istifadə edə biləcəyik.

Bu kontekstdə İtaliya Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişafına güclü dəstəyini davam etdirəcəkdir.

Cənab Prezident, Sizə səmimi dostluq ruhunda şəxsi rifah, dost Azərbaycan xalqına firavan gələcək arzularımı çatdırıram.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə böyük məmnunluqla ən xoş arzularımı çatdırıram.

Son otuz ildə ölkələrimiz arasında qardaşlıq əlaqələri xüsusilə iqtisadiyyat və ticarət, mədəniyyət, təhsil, eləcə də müdafiə sahələrində dərinləşən çoxsahəli əməkdaşlığımız əsasında möhkəmlənmişdir. Pakistan sınaqlar zamanı qürurla Azərbaycanın yanında olmuşdur. Pakistan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə öz dəstəyini göstərməkdə davam edəcəkdir.

Mən həmçinin uzaqgörənliyi və müdrik rəhbərliyi ilə Azərbaycanı uğur və tərəqqi yoluna çıxarmış Ümummilli Liderin xatirəsinə dərin ehtiram bəsləyən, "Heydər Əliyev İli"ndə onun 100 illik yubileyini qeyd edən Azərbaycan xalqını təbrik edirəm.

Əminəm ki, xalqlarımızın rifahı naminə ikitərəfli əməkdaşlığımızı daha da genişləndirmək üçün Sizinlə işləməkdə davam edəcəyik.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, xahiş edirəm, dərin ehtiramımı və xoş arzularımı qəbul edin.

*Hörmətlə,*

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının hökuməti və xalqı adından Sizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Bu fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

*Hörmətlə,*

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırım. Macarıstan ilə Azərbaycan Respublikası arasındakı əməkdaşlıq nümunəvi xarakter daşıyır, həmçinin iqtisadi və siyasi əlaqələrimizin fasiləsiz inkişafı ilə dəstəklənir.

Mən şadam ki, bu ilin yanvarında biz ölkələrimiz arasında əlaqələri genişlənmiş strateji tərəfdaşlıq səviyyəsinə qaldırdıq.

Sizi əmin edə bilərəm ki, Macarıstan hökuməti Azərbaycan Respublikası ilə həm ikitərəfli, həm də türk dövlətlərinin əməkdaşlığı çərçivəsində çoxşaxəli əsasda əlaqələrin daha da inkişafı üçün səy göstərməyə sadiqdir. Əminəm ki, məhsuldar əməkdaşlığımız hər iki ölkənin vətəndaşlarının rifahına xidmət edəcək.

Sizə möhkəm cansağlığı və məsul vəzifənizdə yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə İsveçrə Federal Şurası və İsveçrə vətəndaşları adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mən bu fürsətdən istifadə edərək vətəndaşlarınıza və ölkənizə xoşbəxtlik və əmin-amanlıq dolu gələcək arzulayıram.

Əminəm ki, biz gələcək illərdə ikitərəfli əlaqələrimizi daha da genişləndirə biləcəyik.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Alen BERSE,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ukrayna xalqı adından və şəxsən öz adımdan Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Ölkələrimiz arasında münasibətlər dərin tarixi köklərə malikdir və qarşılıqlı etimada, hörmətə, səmərəli əməkdaşlığa əsaslanır. Əminəm ki, biz Kiyev və Bakı arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə strateji tərəfdaşlığın mövcud potensialını birgə səylərlə maksimum dərəcədə həyata keçirə bilərik.

Bu il 100 illiyi qeyd olunan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir ki, müstəqillik yolu qədər çətin yol yoxdur. Eyni zamanda bütün çətinliklərə baxmayaraq, ölkələrimiz bu yolda inamla irəliləyir. Dövlətimiz və bütün sivil dünya üçün bu çətin zamanda, Rusiyanın Ukraynaya qarşı davam edən müharibəsi dönəmində Azərbaycanın ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin dəstəklənməsinə dair ardıcıl mövqeyinə görə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsi üzrə Ukraynanın dəyişməz mövqeyini də bir daha təsdiq edirəm.

Bu fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, güclü və firavan Azərbaycanın inkişafı yolunda yeni nailiyyətlər, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə yunan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında münasibətlərin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da möhkəmlənəcəyinə inandığımı bildirirəm. Ümidvaram ki, Yunanıstan ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıq geniş regionumuzun inkişafına və sabitliyinə töhfə verərək, qarşılıqlı maraq doğuran digər sahələri də əhatə edəcəkdir.

Zati-aliləri, ölkənizin milli bayramı münasibətilə ən xoş arzularımı çatdırır və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi Moldova Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin dinamik inkişafı və fəal xarici siyasət yürüdülməsi yolunda qazandığı mühüm nailiyyətləri qeyd etmək istəyirəm.

Mən Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında dostluğa, anlaşmaya və qarşılıqlı hörmətə əsaslanan yaxşı münasibətləri yüksək qiymətləndirirəm. Eyni zamanda Moldova-Azərbaycan münasibətlərinin mövcud potensialından ölkələrimizin ümumi mənafeyi naminə tam istifadəsinə töhfə vermək məqsədi daşıyan siyasi dialoqun konstruktiv xarakterini qeyd etmək istərdim.

Qəti əminəm ki, biz qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı birgə səylərlə intensivləşdirə və şaxələndirə biləcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Azərbaycan xalqına sülh, firavanlıq və əmin-amanlıq arzulayıram.

Zati-aliləri, Avropa Siyasi Birliyinin ikinci Zirvə toplantısında iştirak üçün Moldova Respublikasına səfəriniz ərəfəsində ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi, ölkənizin daha da inkişafı naminə ən xoş arzularımı çatdırmaq istərdim.

Fürsətdən istifadə edərək Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcəyinə qəti inamımı bildirirəm.

Zati-aliləri, Sizə dərin ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Jelka TSVİYANOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan vətəndaşlarını təbrik edim.

Azərbaycan Respublikası ilə əlaqələr Macarıstan üçün xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident, şadam ki, Sizin bu ilin yanvar ayında ölkəmizə səfəriniz zamanı biz əlaqələrimizi genişləndirilmiş strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik.

Sizi əmin edə bilərəm ki, Macarıstan ölkələrimiz arasında əməkdaşlığın daha dinamik inkişafına sadiq qalır. Sentyabrda keçiriləcək beşinci Budapeşt Demoqrafik Zirvə toplantısına dəvətimə verdiyiniz cavaba və Azərbaycanın görüşdə yüksək səviyyədə təmsil olunacağını təsdiqlədiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və məsul vəzifənizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Katalin NOVAK,***
***Macarıstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud dostluq əlaqələri gələcəkdə daha da möhkəmlənəcəkdir.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, dost Azərbaycan Respublikasının xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın müstəqilliyinin 105-ci ildönümü münasibətilə Kraliça ilə birlikdə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Səmimi-qəlbdən ümid edirik ki, Malayziya ilə Azərbaycan arasında mövcud olan çoxillik əlaqələr qarşıdakı illərdə dövlətlərimizin rifahı naminə daha da möhkəmlənəcəkdir.

Uca Allahdan zati-alinizə cansağlığı, Azərbaycan Respublikasına və onun xalqına isə davamlı sülh, tərəqqi və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibn əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain BİLLAH,***
***Malayziyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri Prezident İlham Əliyev!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Ulu Tanrıdan zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah nəsib etməsini diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və şəxsən öz adımızdan səmimi təbriklərimizi çatdırmaq istərdik.

Zati-aliləri, bu əlamətdar bayram münasibətilə Sizin şəxsi uğurlarınız və bütün Azərbaycan xalqının firavan gələcəyi ilə bağlı ən xoş arzularımızı bildirir, yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

*Dərin hörmətlə,*

***Alessandro Skarano və Adele TONNİNİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının dövlət bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün hamı üçün aydındır ki, Sizin ölkəniz qarşıya yeni inkişaf zirvələrini fəth etmək məqsədini qoyaraq, xalqın rifahının yüksəldilməsində və dövlətin təhlükəsizliyinin möhkəmlənməsində sanballı nəticələr əldə edib.

Bildiyiniz kimi, mən həmişə Sizin dost xalqlarımız arasında müstəsna münasibətlərin gələcək inkişafına böyük töhfənizi yüksək qiymətləndirirəm. Əminəm ki, aramızda yaranmış dostluq və hörmət gələcəkdə də davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, məsuliyyətli işinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

*Səmimi arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını qarşıdan gələn milli bayram - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Ölkəniz ildən-ilə dövlətçiliyin möhkəmlənməsi və cəmiyyətdə sabitliyin təmin olunması yolunda inamla irəliləyir, iqtisadi potensialını gücləndirir, əsrlər boyu xalqlarımızı birləşdirən həqiqi dostluq, yaxın və mehriban qonşuluq, həmçinin qarşılıqlı etimad üzrə çoxəsrlik ənənələri artırır.

Sizin müdrik rəhbərliyinizlə həyata keçirilən ardıcıl dəyişikliklər və struktur islahatları respublikanın sakinlərinin rifahının təmin olunmasında yüksək nailiyyətlərin əldə edilməsinin etibarlı bünövrəsidir.

Dağıstanlılar adından və şəxsən öz adımdan Dağıstanın Xalq şairi, bütün dünyada insanların qardaşlığını tərənnüm edən Rəsul Həmzətovun 100 illiyinə həsr olunmuş bir sıra əhəmiyyətli tədbirlərin respublikanızda keçirilməsinə görə təşəkkürlərimi qəbul edin. Ümidvaram ki, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə bizim çoxşaxəli qarşılıqlı fəaliyyətimiz gələcəkdə də inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizə möhkəm cansağlığı və işlərinizdə böyük uğurlar, Azərbaycana isə tərəqqi və rifah arzularımı bildirim.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Suverenlik illərində böyük uğurlar qazanan Azərbaycan bu gün dünya arenasında müstəqil, sülhsevər xarici siyasət yürüdən, Yer kürəsinin müxtəlif guşələrində tərəfdaşları ilə əməkdaşlığı fəal inkişaf etdirən və beynəlxalq təhlükəsizliyin, sabitliyin möhkəmlənməsinə mühüm töhfə verən nüfuzlu dövlət kimi tanınır.

İcazə verin, təşkilatımız çərçivəsində məhsuldar əməkdaşlığa və onun fəaliyyətinə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirim. Azərbaycan artıq yeddi ildən çoxdur ki, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində dialoq üzrə tərəfdaşdır, onun tədbirlərində fəal iştirak edir və təşkilatın inkişafına öz layiqli töhfəsini verir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, tükənməz enerji, nəzərdə tutulan planlarınızın reallaşmasını, Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Türk Dövlətləri Təşkilatı adından və şəxsən öz adımdan zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə Türk və İslam dünyasında ilk demokratik respublikanın qurulması mühüm tarixi hadisə kimi digər xalqlara örnək olmuşdur.

Müstəqilliyinin bərpasından keçən dövr ərzində siyasi, iqtisadi və sosial sahələrdə böyük irəliləyişlərə nail olan Azərbaycan Respublikası zati-alinizin müdrik siyasəti sayəsində daha da inkişaf etmiş, regional və beynəlxalq məsələlərdə fəal iştirakı, xüsusilə də sülhün, sabitliyin və əməkdaşlığın təşviqində göstərdiyiniz səylərlə regionun lider ölkəsinə çevrilmişdir.

Türk Dövlətləri Təşkilatına daim göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Əminliklə qeyd etmək istəyirəm ki, türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq ruhu daha da dərinləşəcək və təşkilatımız yeni-yeni uğurlara imza atacaqdır.

Bu əlamətdar bayram münasibətilə yaranmış fürsətdən istifadə edərək zati-alinizə davamlı uğurlar arzulayır, bütün Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik diləyirəm.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Ümumdünya Gömrük Təşkilatının adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz bu əlamətdar bayramı Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi bir vaxtda qarşılayırsınız.

O, yüksəksəviyyəli gömrük xidmətinin əsasının qoyulmasını Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasının və daha da inkişaf etdirilməsinin ən vacib amillərindən biri hesab edirdi.

Bu fürsətdən istifadə edərək Ümumdünya Gömrük Təşkilatının Azərbaycanla tərəfdaşlığının gücləndirilməsinə zati-alinizin töhfələrinə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm. Bu gün Sizin rəhbərliyinizlə və Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə Azərbaycan Dövlət Gömrük Komitəsi öz fəaliyyətini müasirləşdirməkdə davam edir.

Azərbaycan ilə əməkdaşlığı daha da genişləndirmək üçün yaxın gələcəkdə zati-alinizlə qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün görüşmək fürsətini səbirsizliklə gözləyirəm.

Cənab Prezident, xahiş edirəm, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Kunio MİKURİYA,***
***Ümumdünya Gömrük Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

BP şirkəti Azərbaycanın uzunmüddətli strateji tərəfdaşı kimi müasir ölkənizin müxtəlif sahələrdə tərəqqisinin şahidi olmaqdan, eləcə də neft və qaz sənayesinin inkişafına töhfə verməkdən qürur duyur.

Biz bu səmərəli tərəfdaşlığın uzun illər davam edəcəyinə və Azərbaycan xalqının rifahının daha da yüksəlməsinə xidmət göstərəcəyinə inanırıq.

Zati-aliləri, Sizi bu əlamətdar bayram münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzulayıram.

Hörmətlə,

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycanın hökumətinə və xalqına Allah-taaladan daha çox tərəqqi və rifah diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səylərini əsirgəmir.

Zati-alinizin sərəncamına əsasən, 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Bu münasibətlə cəmiyyətimiz tərəfindən silsilə tədbirlər təşkil olunub və olunacaqdır.

Qoy doğma Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Xahiş edirik, ən səmimi arzularımızı qəbul edin.

*Dərin hörmətlə,*

***Əli CÜMƏ,***
***Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor,***

***Usamə əl-ƏBD,***
***Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor,***

***Əl-Seyyid Mahmud əl-ŞƏRİF,***
***Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini,***

***Yusif əl-ŞƏRQAVİ,***
***Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri,***

***Adil DƏRVİŞ,***
***Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru,***

***Bağdadi İMAM,***
***Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin baş direktoru,***

***Tövhid MƏHƏMMƏD,***
***müşavir, vəkil, Misir əl-Xeyir Fondunun hüquqi işlər üzrə direktoru,***

***Midhət CAMAL,***
***general, Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri,***

***Usamə ƏBDÜRRƏHMAN,***
***Helvan Universitetinin professoru,***

***Mona ZİDAN,***
***Helvan Universitetinin professoru,***

***Əhməd Əbdu TARABEK,***
***Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,***

***Mustafa HİCAZİ,***
***"Orange" şirkətinin baş direktoru,***

***Seymur NƏSİROV,***
***Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri***

# Bakıda Gürcüstanın Müstəqillik Günü münasibətilə rəsmi qəbul olub





**Mayın 26-da Bakıda Gürcüstanın Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Gürcüstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət nümayəndələri, icra və qanunvericilik orqanlarının rəhbərləri, Gürcüstandan dəvət olunmuş yüksəkvəzifəli qonaqlar, ölkədə akkreditə olunmuş diplomatik heyətin nümayəndələri və tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze bildirib ki, Gürcüstan və Azərbaycan rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında mehriban dostluq və qonşuluq münasibətləri daha da inkişaf edir, ikitərəfli strateji tərəfdaşlığımız daha da dərinləşir.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin əsasının Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdıran diplomat ölkələrimiz arasında münasibətlərin dərinləşməsində, birgə layihələrin həyata keçirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin rolunu xüsusi qeyd edib. Beynəlxalq sahədə də ölkələrimizin bir-birini dəstəklədiklərini bildirən Zurab Pataradze Gürcüstan və Azərbaycanın bir çox sahələrdə sıx əməkdaşlıq etdiklərini deyib. O, enerji sektorunu ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirib. Vurğulayıb ki, birgə layihələr həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafına böyük töhfə verir.

Azərbaycan xalqını və dövlətini 28 May - Müstəqillik Günü münasibətilə təbrik edən diplomat ölkələrimizin regionda sülh və sabitlik tərəfdarı olduğunu da vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bildirib ki, Azərbaycan və Gürcüstan hər zaman dostluq və qardaşlıq şəraitində yaşayıblar. Bunu hər iki ölkənin 105 il bundan əvvəl müstəqillik qazanması da sübut edir.

Gürcüstan xalqını və dövlətini müstəqillik bayramı münasibətilə təbrik edən Baş nazir bildirib ki, ölkələrimiz arasında mehriban dostluq münasibətlərinin əsası Ulu Öndər Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən qoyulub. Vurğulayıb ki, Ümummilli Lider hər zaman Gürcüstanla münasibətlərə böyük önəm verirdi. Bu münasibətlər hazırda Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin xidmətləri sayəsində daha da inkişaf edərək dərinləşir.

"Ölkələrimiz arasında strateji tərəfdaşlıq və siyasi dialoq yüksək səviyyədədir. Biz bir-birimizi beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyirik. Birgə həyata keçirilən layihələrimiz regionun inkişafına töhfə verir. "Yaşıl enerji" ilə bağlı yeni layihələr reallaşdırılır. Bütün sahələrdə əməkdaşlığımız inkişaf edir. İnanırıq ki, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri daha da dərinləşəcək", - deyə Ə.Əsədov əlavə edib.

Rəsmi hissədən sonra tədbir bədii hissə ilə davam edib.

Tədbir iştirakçıları Abxaziya Dövlət Akademik Mahnı və Rəqs Ansamblı "Abxazeti"nin və Azərbaycanın Əməkdar artisti, gürcü müğənnisi Manana Caparidzenin ifasını dinləyiblər.

Həmçinin gürcü adət-ənənələrinin çoxəsrlik tarixini özündə əks etdirən gürcü milli geyimlərinin sərgisi keçirilib.

# Minatəmizləmə Fəaliyyəti ilə bağlı II Beynəlxalq Konfrans işini başa çatdırıb






**"Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda II Beynəlxalq Humanitar Konfrans işini mayın 26-da Bakıda davam etdirib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub (Məktub qəzetin bugünkü nömrəsində dərc olunub).

Sonra konfransın ötən gün Ağdamda keçirilmiş açılış mərasimi ilə bağlı videoçarx nümayiş olunub.

BMT-nin Minalardan Təmizləmə Xidmətinin (UNMAS) direktoru İlene Kohn beynəlxalq konfransın iştirakçılarına onlayn müraciət edib. Bildirib ki, BMT ölkələrin minalardan təmizlənməsinə, minaların yayılmasının qarşısının alınmasını təşviq etməyə davam edəcək. "Azərbaycan hökuməti, ANAMA minaların təmizlənməsi istiqamətində əhəmiyyətli işlər görür. ANAMA həm də digər ölkələrlə təcrübəsini bölüşür ki, bu da çox vacibdir", - deyə İlene Kohn diqqətə çatdırıb.

"Sülhün Kökləri" (Roots of Peace) beynəlxalq humanitar təşkilatının təsisçisi və rəhbəri Heidi Kühn videomüraciətində Azərbaycana səfəri çərçivəsində minalardan əziyyət çəkmiş insanların, qadınların acı hekayələrini eşitdiyini, onları dinlədiyini vurğulayıb: "Biz minalanmış əraziləri bağlara çevirməliyik. Bu gün 60-a yaxın ölkə 100 milyona yaxın mina və partlamamış sursatla çirklənib. Azərbaycan da bu ölkələrdən biridir. Azərbaycanın ərazilərində 1 milyona yaxın mina və partlamamış sursat basdırılıb. Biz minaları təmizləmək və yenilərinin basdırılmasının qarşısını almaq üçün birgə işləməliyik. Biz insanlıq üçün birləşməliyik".

Konfransın ilk sessiyası "Milli mülkiyyət və beynəlxalq dəstək - bunun üçün ən uyğun tarazlıq axtarışında olmaq" mövzusuna həsr olunub.

Çıxışlarda bildirilib ki, Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasındadır. Mina problemi ölkələrin inkişafı üçün maneə yaradır. Minaların təmizlənməsi insanların elektrik, su təchizatı problemlərinin aradan qaldırılmasına kömək edəcək.

Tədbirdə həmçinin ANAMA-nın 1998-ci ildən etibarən fəaliyyəti, bu sahədə qazandığı nailiyyətlər və təmizləmə işlərinin aparılması haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, 147 min hektar ərazi minalarla çirklənib. Minalar arasında ən çox rast gəlinən Ermənistanda istehsal olunan qara plastik minalardır. Azərbaycan hökumətinin, ANAMA-nın əsas məqsədlərindən biri dünya icmaları ilə bir araya gələrək təcrübə mübadiləsi aparmaq, səmərəli minatəmizləmə siyasəti ortaya qoymaq və əməkdaşlığı gücləndirməkdir.

"Minasız dünyaya nail olmaq üçün qlobal tərəfdaşlıq" mövzusunda ikinci sessiyada Azərbaycanın qlobal səviyyədə humanitar minatəmizləmə prosesinə verdiyi töhfələrdən danışılıb. Diqqətə çatdırılıb ki, ərazilərin yenidən bərpası üçün minatəmizləmə prosesi çox vacibdir. Minatəmizləmə yalnız bundan əziyyət çəkən ölkələrin məsuliyyəti olmamalıdır. Eyni zamanda digər ölkələr, beynəlxalq ictimaiyyət, qarşı tərəf bu məsuliyyəti bölüşməli, minadan əziyyət çəkən ölkəyə yardım etməlidir.

Həmçinin tədbirdə Ottava Konvensiyasının vacibliyi vurğulanıb. Bildirilib ki, bu konvensiya həm də Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusilə də minalardan azad dünyaya nail olmaq üçün əsas mexanizmlərdən biridir.

Tədbirin "Minaların və müharibənin partlayıcı qalıqlarının insan təhlükəsizliyinə təsiri" mövzusunda növbəti sessiyasında çıxış edənlər bildiriblər ki, minaların təmizlənməsi böyük məbləğdə vəsait tələb edir. Dünya ölkələri minatəmizləmə ilə bağlı effektiv siyasət ortaya qoymalı və mina qurbanlarına yardım üçün layihələr təşkil etməlidir.

Konfransın sonunda bəyannamə qəbul olunub.

Sonra BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev bu bəyannamənin qəbulunun əhəmiyyətini vurğulayıb. O, beynəlxalq konfransın təşkilinə görə ANAMA-ya və BMT-nin Azərbaycandakı nümayəndəliyinə təşəkkür edib və bildirib ki, konfrans çərçivəsində vacib və maraqlı müzakirələr aparılıb.

A.Zuyev mina təhlükəsinin qarşısının alınmasında beynəlxalq həmrəyliyin vacibliyini qeyd edib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev deyib ki, konfrans ötən il 30 mart - 1 aprel tarixlərində "Humanitar Minatəmizləmə və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda keçirilmiş beynəlxalq konfransın davamıdır. O, konfransda 51 ölkəni təmsil edən rəsmi şəxslərin iştirakının dostluq şəbəkəsinin yaranmasına kömək etdiyini deyib.

Qeyd edək ki, konfransın birinci günü mayın 25-də Ağdamda keçirilib və qonaqlar panel müzakirələrdə iştirak ediblər. Ağdama səfər çərçivəsində iştirakçılar bərpa-quruculuq planları ilə tanış olub, mina partlayışları nəticəsində zərərçəkmiş amputant futbolçuların oyununu izləyiblər. Onlar həmçinin ANAMA-nın fəaliyyət göstərdiyi minatəmizləmə sahəsinə səfər edib və minaların partlayış yolu ilə zərərsizləşdirilməsinin şahidi olublar.

# Milli Məclisin Sədri Sahibə Qafarova Serbiyanın Baş naziri ilə görüşüb

**Serbiya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkənin Baş naziri Ana Brnabiç ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Milli Məclisinin Sədrini səmimiyyətlə salamlayan Baş nazir deyib ki, dost ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir. O, Azərbaycanın Serbiya üçün çox böyük əhəmiyyətə malik ölkə olduğunu deyib. Ana Brnabiç vurğulayıb ki, müsbət siyasi dialoq və qarşılıqlı səfərlər bu əlaqələrin daha da dərinləşməsinə imkan verir. Baş nazir Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə ötən il baş tutan səfərini və Azərbaycanın dövlət başçısı ilə görüşünü məmnunluqla xatırlayaraq, səfərin nəticələrinin uğurlu olduğunu diqqətə çatdırıb.

O, ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmini qeyd edərək deyib ki, enerji təhlükəsizliyi məsələsi milli təhlükəsizlik baxımından olduqca vacibdir. Baş nazir Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu vurğulayıb.

Ana Brnabiç Azərbaycan və Serbiyanın bir çox məsələlərdə, o cümlədən suverenlik və ərazi bütövlüyü məsələlərində həmrəylik nümayiş etdirdiyini və bir-birinə qarşılıqlı dəstək verdiyini ifadə edib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova dost və strateji tərəfdaş olan ölkələrimiz arasında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm rolunu qeyd edib. Spiker bu kontekstdə xüsusilə Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında Serbiyaya rəsmi, həmçinin Prezident Aleksandr Vuçiçin 2018-ci ilin mayında Azərbaycana rəsmi və 2022-ci ilin dekabrında işgüzar səfərlərinin önəmini diqqətə çatdırıb.

Görüşdə Milli Məclisin Sədri qeyd edib ki, yüksəksəviyyəli siyasi təmaslar ikitərəfli gündəliyin digər sahələrində də əməkdaşlığın inkişafı üçün güclü əsaslar yaradır. O, iqtisadiyyat və ticarət sahələrini əhatə edən münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirib. Spiker deyib ki, hökumətlərarası komissiyanın səmərəli fəaliyyəti iqtisadi əlaqələri daha da dərinləşdirməyə imkan verəcək. Enerji sektoru əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensiala malik olan sahələrdən biridir. O, Azərbaycanın uğurlu enerji siyasəti haqqında məlumat verib.

Milli Məclisin Sədri deyib ki, Azərbaycan və Serbiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərdə müsbət amillərdən biri də qanunverici orqanlar arasında əlaqələrdir. O, qarşılıqlı səfərlərin bu əməkdaşlığın inkişafına təkan verdiyini deyib. Bu səfərin Azərbaycan Milli Məclisinin Sədri qismində Serbiyaya ilk səfər olduğunu deyən spiker Sahibə Qafarova bir neçə gün əvvəl Serbiya Milli Assambleyasının Sədri Vladimir Orliçin Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizə səfər etdiyini məmnunluqla xatırladıb. Sahibə Qafarova parlamentlərimiz arasında bir sıra beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlığı daha da inkişaf etdirmək üçün yaxşı imkanlar olduğunu da diqqətə çatdırıb. Milli Məclisin Sədri Azərbaycan və Serbiya parlamentləri arasında imzalanan anlaşma memorandumunun münasibətlərin daha da genişlənməsinə xidmət edəcəyinə inamını ifadə edib.

Milli Məclisin Sədri görüşdə həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Serbiyada Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş tədbirdə çıxış edib

**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Serbiya Respublikasında rəsmi səfərdədir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Serbiya Respublikasının paytaxtı Belqrad şəhərində Azərbaycanın Serbiyadakı səfirliyi tərəfindən keçirilən və 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbirdə iştirak edib.**



Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərin qarşılıqlı fəaliyyətidir. Millət vəkillərinin xalqı təmsil etdiyini, onun iradəsini əks etdirdiyini deyən spiker Sahibə Qafarova bildirib ki, parlament spikerlərinin, dostluq qruplarının qarşılıqlı səfərləri, beynəlxalq parlament təşkilatları çərçivəsində birgə fəaliyyəti bu əməkdaşlığı ölkələrimizin və xalqlarımızın rifahı naminə daha da inkişaf etdirmək əzmimizi nümayiş etdirir.





Spiker Sahibə Qafarova tədbirdə çıxış edib.

Tədbir iştirakçılarını salamlayan Sahibə Qafarova Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Serbiya Respublikasının Baş naziri Ana Brnabiç, Serbiya Respublikası Milli Assambleyasının Sədri Vladimir Orliç ilə keçirdiyi görüşlərdən söz açıb. O, rəsmi səfəri çərçivəsində Serbiya Milli Assambleyasının Sədri Vladimir Orliçlə Azərbaycan və Serbiya parlamentləri arasında anlaşma memorandumu imzaladıqlarını qeyd edib, bu sənədin parlamentlərarası əməkdaşlığımızın daha da inkişafına kömək edəcəyinə əminliyini bildirib.

Spiker Sahibə Qafarova 105 il əvvəl, 28 May 1918-ci ildə Azərbaycan xalqının öz çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, müsəlman Şərqində ilk demokratik parlament respublikasını təsis etməsindən söz açıb. O, diqqətə çatdırıb ki, həmin dövrdə ilk parlament və hökumət, dövlət atributları yaradıldı, ölkənin sərhədləri müəyyən edildi, dövlət quruculuğu, respublikanın beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması sahəsində mühüm işlər görüldü. Parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkənin siyasi, iqtisadi və mədəni inkişafının təmin olunmasında əsas rol oynadı.

Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan hələ 1918-ci ildə Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən də xeyli əvvəl qadınlara səsvermə hüququ verən ölkədir. Bu, ilk Demokratik Azərbaycan Respublikasının uğurlarından biri idi. Qeyd olunub ki, Azərbaycanda gender bərabərliyi nəinki bu günə qədər davam edir, həm də irəliləyir və möhkəmlənir.

Ötən il Azərbaycan və Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25 ilinin tamam olduğunu deyən spiker Sahibə Qafarova bildirib ki, bu illər ərzində Azərbaycanla Serbiya arasında münasibətlər dinamik inkişaf edib. Bu gün Azərbaycan ilə Serbiya arasında əlaqələrin möhkəm dostluq, qarşılıqlı etimad və anlaşma ilə fərqləndiyini deyən Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, suverenlik və ərazi bütövlüyü məsələlərində bir-birinə göstərilən güclü həmrəylik və dəstək Azərbaycan-Serbiya münasibətlərinin ən mühüm xüsusiyyətlərindən biridir.

Sahibə Qafarova qeyd edib ki, ölkələrimiz arasında iqtisadi, ticarət və humanitar sahələrdə, eləcə də enerji sektorunda sıx əməkdaşlıq mövcuddur. Serbiya ilə Bolqarıstan arasında birləşdirici xəttin tikintisi Azərbaycan təbii qazının və elektrik enerjisinin Serbiyaya çatdırılmasına imkan verəcək.

Çıxışında Sahibə Qafarova regionda mövcud vəziyyət barədə məlumat verib, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini Ermənistanın 30 illik işğalından azad edərək öz ərazi bütövlüyünü bərpa etməsindən qürurla söz açıb. Diqqətə çatdırıb ki, münaqişənin sülh yolu ilə həllini uzun illər gözləyəndən sonra Azərbaycan 2020-ci ildə BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etməklə BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təmin edib, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Spiker Sahibə Qafarova bildirib ki, bu gün Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb. Bu ərazilər "yaşıl enerji" zonası elan edilib. "Ağıllı şəhər"lər və "ağıllı kənd"lər tikilir. Keçmiş məcburi köçkünlərin ilk ailələri artıq evlərinə qayıtmağa başlayıblar.

Sahibə Qafarova Azərbaycanın sülh sazişini təklif etdiyini diqqətə çatdırıb. O deyib ki, Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalansa, Qafqazda uzunmüddətli sülh bərqərar olacaq.

*"Azərbaycan"*

# Azərbaycan beynəlxalq iqtisadi forumda təmsil olunub

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Kazanda keçirilən "Rusiya - İslam dünyası: Kazan Forumu" adlı 14-cü beynəlxalq iqtisadi forumda ölkəmizi təmsil edib.








AZƏRTAC xəbər verir ki, Şahin Mustafayev forum çərçivəsində "İqtisadi etibarlılıq. Rusiya və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri arasında əməkdaşlıq" sərlövhəsi altında keçirilən plenar iclasda çıxış edib. Baş nazirin müavini islam dünyası ilə əlaqələrin Azərbaycanın xarici siyasətində xüsusi yer tutduğunu, ölkəmizin müstəqilliyin bərpasından sonra İƏT-ə üzv olan ilk postsovet ölkəsi olduğunu vurğulayıb. Bildirib ki, ötən 30 ildən artıq dövrdə təşkilata üzv dövlətlərlə iqtisadi-siyasi əlaqələr artan istiqamətdə davam edib. Belə ki, ötən il Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ölkələri ilə ticarət dövriyyəsi 42 faiz artaraq 9,3 milyard ABŞ dollarına çatıb. Təşkilata üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsindəki payı 18 faiz təşkil edir. İqtisadi əlaqələrdə müsbət dinamika bu ilin geridə qalan dövründə də davam edib.

Şahin Mustafayev çıxışında ölkəmizin beynəlxalq nəqliyyat marşrutları üçün əhəmiyyətli və həlledici rolundan da danışıb. Zəngəzur dəhlizinin işə düşməsi ilə "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat istiqamətlərinin, region ölkələri üçün böyük imkanlar yaradacağı vurğulanıb. Azərbaycanın inkişaf etmiş nəqliyyat, tranzit infrastrukturu ilə nəhəng layihələrin icrasına hazır olduğu bildirilib və bu xüsusda Bakı Beynəlxalq Dəniz Limanının əhəmiyyəti xüsusi vurğulanıb.

Baş nazirin müavini İƏT üzvlərinin Qarabağ münaqişəsi zamanı ədalətli mövqe sərgiləməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib. Qeyd edib ki, münaqişə artıq tarixdə qalıb. Azərbaycan Ermənistanla münasibətlərin normallaşmasının, regionda sülhün, sabitliyin və iqtisadi çiçəklənmənin əsas təşəbbüskarı olaraq qalmaqdadır.

Kazan səfəri çərçivəsində Rusiya-Azərbaycan münasibətlərinə həsr edilmiş "dəyirmi masa" da təşkil edilib. Müzakirələr zamanı Rusiya və Azərbaycan arasında iqtisadi-siyasi əlaqələrin çoxşaxəli, zəngin tarixi keçmişə malik olduğu vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin siyasi iradəsi və birgə səyləri ilə ikitərəfli əlaqələrin strateji səviyyəyə çatdığı və demək olar ki, bütün mümkün sahələri əhatə etdiyi qeyd olunub. Qarşılıqlı maraqlara xidmət edən ikitərəfli münasibətlərin imzalanmış 250-dən artıq sənədin, o cümlədən müttəfiqlik bəyannaməsinin yaratdığı möhkəm hüquqi bazaya əsaslandığı diqqətə çatdırılıb.

Şahin Mustafayev ötən il ticarət dövriyyəsinin 24 faiz artaraq 3,7 milyard ABŞ dollarına çatdığını qeyd edib. Bildirib ki, 2023-cü ilin ilk kvartalında ticarət əlaqələrinin 67 faiz artması bu il ikitərəfli iqtisadi əlaqələrdə yeni, daha yüksək göstəricilərin əldə ediləcəyinə əsaslı inam yaradır.

İki ölkənin hökumətləri arasında da aktiv işin aparıldığını diqqətə çatdıran Baş nazirin müavini bu xüsusda "2024-cü ilə qədər ikitərəfli əməkdaşlığın əsas istiqamətlərinin inkişaf etdirilməsi ilə bağlı hərəkət planı"nın böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Bundan başqa, qarşıya qoyulan əsas vəzifələrdən birinin iki ölkənin regionları arasında əlaqələrin inkişafı olduğu bildirilib. Bu istiqamətdə 2022-ci ildə Bakıda Azərbaycan-Rusiya regionlararası forumunun keçirilməsi, mütəmadi əsasda təşkil edilən biznes forumların, eləcə də Azərbaycanın və Rusiyanın vilayətləri arasında biznes-missiyaların icrasının xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb.

Baş nazirin müavini Rusiya və Azərbaycan prezidentlərinin regionlararası əlaqələrin inkişafına dair tapşırıqlarının aktiv şəkildə icra edildiyini diqqətə çatdırıb. Bu istiqamətdə ötən ilin sonunda və cari ilin əvvəlində Dağıstan, Tatarıstan və Həştərxan vilayəti ilə yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirildiyi vurğulanıb.

Şahin Mustafayev fürsətdən istifadə edərək, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş tədbirlərin yüksək səviyyədə təşkilinə görə Həştərxan vilayəti hökumətinə təşəkkürünü bildirib.

"Rusiya - İslam dünyası: Kazan Forumu" çərçivəsində Tatarıstanın paytaxtında "Russia Halal Expo" sərgisi keçirilib. Azərbaycan sərgidə vahid ölkə stendi ilə təmsil olunub. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə dəstəyi ilə Azərbaycan məhsulları - müxtəlif ət və ət məhsulları, narşərab, kompot, mürəbbə, çay və digər məhsul və xidmətlər təqdim edilib. Azərbaycan stendində eyni zamanda işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, investisiya imkanları nümayiş olunub.

Ölkəmizi "Rusiya - İslam dünyası: Kazan Forumu" adlı 14-cü beynəlxalq iqtisadi forumda təmsil edən nümayəndə heyəti Azərbaycan stendi ilə tanış olub.

Kazan şəhərinə səfər çərçivəsində Baş nazirin müavini Şahin Mustafayev Rusiya Prezidentinin köməkçisi İqor Levitin, Rusiya Hökuməti sədrinin birinci müavini Andrey Belousov, eləcə də hökumət sədrinin müavini Aleksey Overçuk ilə görüşüb.

Görüşlərdə Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin perspektivləri, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi yolları müzakirə edilib.

Ölkəmizi təmsil edən nümayəndə heyətinin Rusiya Hökuməti sədrinin müavini Marat Xusnullin və Tatarıstan Respublikasının rəhbəri Rüstəm Minnixanov ilə görüşündə isə əsasən Azərbaycanın və Rusiyanın regional subyektləri arasında əlaqələrin inkişaf potensialı müzakirə edilib. Bu xüsusda ölkəmizin Tatarıstanla çoxşaxəli iqtisadi, təhsil, turizm münasibətlərinin yaxşı nümunə ola biləcəyi vurğulanıb.

# Tarixi Viktoriya və Albert Muzeyində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib





Böyük Britaniyanın böyük tarixi, memarlıq və mədəniyyət ocağı, dünyanın nüfuzlu muzeylərindən olan Viktoriya və Albert Muzeyinin "Rafael" qalereyasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyev 1998-ci ildə Böyük Britaniyaya səfəri zamanı tədbirin təşkil olunduğu bu məkanda konsertdə iştirak etmiş və çıxış etmişdi. Ümummilli Lider bu tarixi salonda Azərbaycan musiqisi və incəsənətinin təqdim edilməsinin vacibliyini vurğulamışdı. Həmin əlamətdar tarixi məqam mayın 25-də Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirə daha bir özəllik verirdi.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən tədbirdə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Böyük Britaniya Parlamentinin İcmalar palatasının deputatları, lordlar, Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun sədri, bu ölkədə akkreditasiya olunmuş diplomatik korpusun üzvləri, özəl sektorun nümayəndələri, tanınmış ictimai xadimlər, Böyük Britaniyadakı Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sərgi və konsert proqramı təqdim edilib. Sərgidə Ulu Öndərin həyatı və siyasi fəaliyyətinə dair, Azərbaycan tarixinin əsas hadisələri, Azərbaycan-Böyük Britaniya ikitərəfli münasibətləri haqqında foto və məlumatlar yer almışdı.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dünyada mövqeyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin genişləndirilməsi istiqamətindəki müstəsna xidmətlərindən danışıb.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson çıxışında Heydər Əliyevi müasir Azərbaycanın qurucusu və çiçəklənməsinin səbəbkarı adlandırıb.

Konsert proqramında Böyük Britaniyada yaşayan Azərbaycan skripkaçısı Nəzrin Rəşidovanın yaratdığı, 25 ölkənin nümayəndələrinin cəmləşdiyi "FeMusa" kamera orkestri, Əməkdar artist, tarzən Sahib Paşazadə, Londonda yaşayan həmyerlimiz, skripka ifaçısı Səbinə Rakçeyeva çıxış ediblər.

# Azərbaycan və BƏƏ arasında energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfər edib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarovun BƏƏ-yə səfəri çərçivəsində bir sıra görüşlər keçirilib. SOCAR prezidenti Rövşən Nəcəfin də iştirak etdiyi görüşlərdə qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri, Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) baş icraçı direktoru və "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberlə görüşdə iqtisadiyyat naziri ölkəmizin təmiz ətraf mühit və "yaşıl enerji" ölkəsinə çevrilməsinin qarşıya hədəf kimi qoyulduğunu vurğulayıb, enerjidən səmərəli istifadə olunması və yeni dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr və onların icra vəziyyəti barədə məlumat verib. Bildirilib ki, alternativ enerji mənbələrinin yaradılması istiqamətində ölkəmizin potensialı böyükdür və Azərbaycan bu sahədə "Masdar" şirkəti ilə uğurlu əməkdaşlıq edir. Enerji istehsalının bərpaolunan mənbələr hesabına şaxələndirilməsinin əsas hədəflərdən olduğu, şirkətlə əməkdaşlığın dayanıqlı, təmiz enerji ilə bağlı prioritetlərimizin reallaşdırılmasına töhfə verəcəyi qeyd edilib.

BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri, ADNOC şirkətlər qrupunun baş icraçı direktoru, "Masdar" şirkətinin sədri Sultan Əl Caber rəhbərlik etdiyi şirkətin fəaliyyəti, müxtəlif ölkələrdəki təcrübəsi barədə danışıb, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Həmçinin ölkəmizin əlverişli coğrafi mövqeyinin, təbii potensialının və inkişaf etmiş infrastruktura malik olmasının "Masdar" şirkəti ilə əlaqələrin genişləndirilməsi üçün şərait yaratdığını vurğulayıb.

Görüşdə ölkələrimiz arasında uğurlu iqtisadi əlaqələr, neft-qaz hasilatı (upstream) və neft-kimya üzrə layihələr (downstream), həmçinin karbohidrogen resurslarının nəqli (midstream) və "yaşıl enerji" istehsalı üzrə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Səfər çərçivəsində "Sustainable Water Solutions" holdinqinin sədri Əhməd Əl Şəmsi ilə keçirilən görüşdə yeni iqtisadi çağırışlar şəraitində resurslardan səmərəli istifadənin əhəmiyyəti, Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti və dayanıqlı inkişaf üçün innovativ mexanizmlərin tətbiqində ölkəmizlə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

# Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin formalaşdırılması qaydaları təkmilləşdirilir



Mayın 26-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, gündəliyə bir məsələ - "Məhkəmə-Hüquq Şurası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəsi daxil edilib.

Bildirilib ki, müzakirəyə təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların davam etdirilməsini nəzərdə tutur. Belə ki, layihə məhkəmə sisteminin müstəqilliyinin daha səmərəli şəkildə təmin edilməsi məqsədilə Məhkəmə-Hüquq Şurasının, habelə Hakimlərin Seçki Komitəsinin formalaşdırılması qaydalarının təkmilləşdirilməsi üçün hazırlanıb. Sənədə əsasən Məhkəmə-Hüquq Şurasının icra hakimiyyəti orqanlarının nümayəndələrinin sayı azaldılmaqla, şuranın hakim üzvlərinin sayının artırılması təklif edilir. Bundan başqa, Məhkəmə-Hüquq Şurasının hakim üzvləri hakimlərin konfransı tərəfindən (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilən hakim istisna olmaqla), Məhkəmə-Hüquq Şurasının sədri isə şuranın yalnız hakim üzvləri sırasından seçiləcəklər. Qanuna yeni əlavə olunması təklif olunan maddədə hakimlərin konfransının funksiyası, orada məhkəmə instansiyaları hakimlərinin təmsil olunması və qərarların qəbul edilməsi qaydaları əks olunur. Eyni zamanda Hakimlərin Seçki Komitəsində bütün hakimiyyət qollarının nümayəndələrinin təmsil olunması məqsədilə Hakimlərin Seçki Komitəsinin üzvlərinin sırasına Azərbaycan Respublikası Milli Məclisi Aparatının nümayəndəsi əlavə edilir.

Qanun layihəsinin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Tahir Kərimli, Nizami Səfərov, Bəhruz Məhərrəmov, Kamal Cəfərov çıxış ediblər. Deputatlar dəyişikliyin məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi baxımından mütərəqqiliyini vurğulayıblar, layihə ilə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Komitə sədri Əli Hüseynli səslənən qeydlərə münasibət bildirəndən sonra deputatlar "Məhkəmə-Hüquq Şurası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***"Azərbaycan"***

# Azərbaycan və Almaniya nümayəndələrinin işçi görüşü

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikası (AFR) Federal Müdafiə Nazirliyi arasında "Əməkdaşlıq danışıqları" tədbirləri çərçivəsində Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində bu ölkənin strateji kommunikasiya məsələləri üzrə bir qrup zabiti ilə işçi görüş keçirilib.

AZƏRTAC-a bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasının icrası ilə bağlı yaradılmış işçi qrupunun iştirakı ilə keçirilən görüşdə almaniyalı nümayəndələrə nazirliyin kommunikasiya sahəsində fəaliyyəti, o cümlədən 44 günlük Vətən müharibəsində informasiya və psixoloji əməliyyatlara qarşı mübarizə tədbirləri barədə ətraflı məlumat verilib.

Qonaqlar Strateji Kommunikasiya, o cümlədən ictimaiyyətlə əlaqələr işinin təşkili və digər mövzulara dair brifinqlər təqdim ediblər.

Görüşdə kommunikasiya sahəsində təcrübə mübadiləsi baxımından bu cür görüşlərin və qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb.

# İKT infrastrukturunun möhkəmləndirilməsi və inkişafı DİM-in müvəffəqiyyətlə həyata keçirilməsi üçün əhəmiyyətli rol oynayır

Qoşulmama Hərəkatına üzv dövlətlərin informasiya və kommunikasiya sahəsinə məsul nazirlərinin "Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi çərçivəsində İKT infrastrukturunun inkişafı" mövzusuna həsr olunan virtual görüşü keçirilib.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilən görüş Qoşulmama Hərəkatına üzv dövlətlər arasında əməkdaşlığı gücləndirmək və İKT infrastrukturunun inkişafında təcrübə mübadiləsinə nail olmaq məqsədi daşıyıb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, İKT sektorundakı ən son inkişaf və yeniliklər paylaşılıb, səmərəli təcrübələr müzakirə edilib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev tədbirdə çıxış edərək, Azərbaycanda İKT infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Nazir bildirib ki, artan tələbatı nəzərə alaraq biz GPON texnologiyasının tətbiqi ilə ölkənin genişzolaqlı infrastrukturuna sərmayə qoymağa davam edirik: "Bu gün Azərbaycanda ev təsərrüfatlarının 39 faizinin (1 milyondan çox ev) fiber-optik genişzolaqlı internetə çıxışı var və 2024-cü ilin sonuna kimi bütün ev təsərrüfatlarının yüksəkkeyfiyyətli genişzolaqlı internetə çıxışla təmin olunması planlaşdırılır".

Tədbirdə Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibinin müavini Tomas Lamanauskas, habelə Qoşulmama Hərəkatına üzv dövlətlərin informasiya və kommunikasiya sahəsinə məsul nazir və nazir müavinləri İKT sahəsi qarşısında duran çağırışlardan bəhs ediblər. Həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər və yeniliklərlə bağlı öz təcrübələrini bölüşüblər.

Görüş çərçivəsində İKT sektorunun sürətli inkişafına və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının vacibliyinə diqqət çəkilib. Vurğulanıb ki, İKT infrastrukturunun möhkəmləndirilməsi və inkişafı DİM-in müvəffəqiyyətlə həyata keçirilməsi üçün əhəmiyyətli rol oynayır.

Tədbir zamanı Qoşulmama Hərəkatı Gənclər Təşkilatının rəhbəri Orduxan Qəhrəmanzadə də çıxış edib və təşkilatın fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verib.

Görüşün sonunda Qoşulmama Hərəkatına üzv dövlətlərin informasiya və kommunikasiya sahəsinə məsul nazirlərinin Birgə Bəyannaməsi qəbul olunub.

# Tbilisidə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Gürcüstanda səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 26-da Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nazir abidə önünə əklil qoyub, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

Müdafiə nazirini Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın Müdafiə Qüvvələri komandanının müavini general-mayor Zaza Çikaidze və digər rəsmi şəxslər müşayiət ediblər.

Xatırladaq ki, nazir Zakir Həsənov Gürcüstanın Müstəqillik Günü münasibətilə Tbilisidə keçirilən rəsmi paradda iştirak edib.

# Müdafiə naziri Gürcüstanda keçirilən hərbi paradda iştirak edib





Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müstəqillik Günü münasibətilə keçirilən hərbi parad və hərbi qulluqçuların andiçmə mərasimində fəxri qonaq qismində iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sonra müdafiə naziri Tbilisidəki Heydər Əliyev parkına gəlib, burada Ulu Öndərin abidəsini ziyarət edib, önünə əklil qoyaraq xatirəsini hörmət və ehtiramla anıb.

Qeyd edək ki, Gürcüstanın Müstəqillik Günü münasibətilə keçirilən tədbirdə iştirak edən Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun Hərbi Orkestri konsert proqramı ilə çıxış edib.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 5, 19 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 9, 16, 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 12, 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 13, 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 22 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 21 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri**<br>Fikrət Məmmədov | **Qazax** | Qazax, Ağstafa, Tovuz | **02** |
| 2. | **Baş prokuror**<br>Kamran Əliyev | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | **02** |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Qusar** | Qusar, Quba, Xaçmaz | **05** |
| 4. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru**<br>Ruslan Əliyev | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **05** |
| 5. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Mübariz Qurbanlı | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **08** |
| 6. | **Baş prokuror**<br>Kamran Əliyev | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan | **09** |
| 7. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Qobustan** | Qobustan, Şamaxı | **09** |
| 8. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Gəncə** | Gəncə, Naftalan, Goranboy, Samux, Kəlbəcər, Xocalı | **09** |
| 9. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **Şəmkir** | Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl | **09** |
| 10. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **İmişli** | İmişli, Saatlı, Sabirabad | **12** |
| 11. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | **İsmayıllı** | İsmayıllı, Ağsu, Göyçay, Şamaxı, Qobustan | **13** |
| 12. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | **14** |
| 13. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Quba** | Quba, Qusar | **16** |
| 14. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Salyan** | Salyan, Neftçala | **20** |
| 15. | **“Azərişıq” ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Samux** | Samux, Göygöl | **22** |
| 16. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | **Tərtər** | Tərtər, Ağdam | **22** |
| 17. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | **Göyçay** | Göyçay, Ağdaş | **23** |
| 18. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | **23** |
| 19. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | **23** |
| 20. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Şamaxı** | Şamaxı, Qobustan | **23** |
| 21. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Göygöl** | Göygöl, Daşkəsən | **23** |
| 22. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Şəmkir** | Şəmkir, Gəncə, Goranboy, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər | **23** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | **Şabran** | Şabran, Xaçmaz | **23** |
| 24. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **23** |
| 25. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **23** |
| 26. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | **23** |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | **Salyan** | Salyan, Neftçala | **25** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Gürcüstanda Müstəqillik Günü qeyd olunub

Mayın 26-da Gürcüstanda ilk müstəqil respublikanın qurulmasının 105-ci ildönümü geniş qeyd olunub.

AZƏRTAC xəbər verir ki, paytaxt Tbilisi ilə yanaşı, ölkənin bütün bölgələrində Müstəqillik Günü münasibətilə təntənəli tədbirlər keçirilib. Əsas tədbir paytaxt Tbilisidəki Azadlıq meydanında və mərkəzi Rustaveli prospektində olub. Burada müxtəlif sərgilər, konsert proqramları, əyləncəli oyunlar, teatr tamaşaları təşkil edilib.

Azadlıq meydanında keçirilən rəsmi tədbirdə müxtəlif ölkələrdən qonaqlar, eləcə də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, səfir Faiq Quliyev və Gürcüstanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Prezident Salome Zurabişvili, Baş nazir İrakli Qaribaşvili, müdafiə naziri Cuanşer Burçuladze, parlamentin sədri Şalva Papuaşvili və başqaları çıxışlarında gürcü xalqını bayram münasibətilə təbrik ediblər. Çıxışlarda Gürcüstanın Azərbaycan və Türkiyə ilə hərbi əməkdaşlığı yüksək qiymətləndirilib. Azərbaycanın müdafiə nazirinin bu tədbirdə iştirakı ölkələrimiz arasındakı dostluq və strateji tərəfdaşlığın bariz nümunəsi kimi qiymətləndirilib.

Sonra hərbi çağırışçıların andiçmə mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun hərbi orkestri maraqlı konsert proqramı ilə çıxış edib. Orkestrin "Mehtər", "Azərbaycan", "Əsgər marşı", "Azərbaycan əsgəri" və digər ifaları alqışlarla qarşılanıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2023-cü ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, energetika naziri Pərviz Şahbazov mayın 26-da Lerik rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların elektrik enerjisi və qaz təchizatı, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, cərimələr, kabelləşmə, yeni transformatorun quraşdırılması, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Lerik, Lənkəran və Masallı rayonlarından olan 21 vətəndaş iştirak edib.

* * *

Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu mayın 26-da Xaçmaz şəhərində gerçəkləşib.

Nazirlikdən bildirilib ki, qəbulda həmçinin mədəniyyət nazirinin müavini Səadət Yusifova, aparat rəhbəri Xanlar Ağalarov və struktur bölmələrin rəhbərləri də iştirak ediblər.

Xaçmaz Şəhər Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda əsasən Xaçmaz, Quba və Qusar rayonlarından, eləcə də digər bölgələrdən sakinlər iştirak ediblər.

Sakinləri ayrı-ayrılıqda dinləyən nazir bütün müraciətlərin araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

* * *

İqtisadiyyat nazirinin müavini İsmayıllıda vətəndaşlarla görüşüb. İqtisadiyyat Nazirliyindən bildirilib ki, görüşdə vətəndaşların sahibkarlıq fəaliyyətinə güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, əmlak və sair məsələlərlə bağlı müraciətlərinə baxılıb.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov İsmayıllı şəhərində İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, vergi inzibatçılığı, əmlak və sair məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, onlara müraciət etdikləri məsələlərlə bağlı əsaslandırılmış cavab və izahat verilib, araşdırma tələb edən müraciətlər isə baxılması üçün qeydiyyata alınıb.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov mayın 26-da Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda 36 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, həqiqi hərbi xidmətə bərpa, övladının xidmət yerinin müəyyənləşdirilməsi, Vətən müharibəsində iştiraka görə orden və medalla təltif olunma, şəhid və şəhid ailəsi statusunun verilməsi, müharibə veteranı adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətdən möhlət verilməsi və sair məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı vətəndaşların müraciətləri diqqətlə dinlənilib, bir hissəsi yerindəcə həll olunub, araşdırma tələb edən məsələlər qanunvericiliyə uyğun olaraq həll edilməsi məqsədilə qeydiyyata alınıb və müvafiq tapşırıqlar verilib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev mayın 26-da Qəbələ Rayon Mərkəzi Xəstəxanasında Qəbələ, Oğuz və İsmayıllı rayon sakinlərini qəbul edib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanovun, Qəbələ, Oğuz və İsmayıllı rayon mərkəzi xəstəxanalarının direktorları, Şəki və Şamaxı filiallarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 26 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən müayinə-müalicə, cərrahi əməliyyatlar, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı, əlillik məsələləri, iş və əmək münasibətləri ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

*Əvvəli 1-ci səh.*

### Tərəflər arasında keçirilən 10-cu görüş

Mayın 19-da Moskvada yenidən XİN başçıları səviyyəsində növbəti görüş keçirildi. Sergey Lavrovun iştirakı ilə baş tutan görüşdə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması barədə müzakirələr aparıldı. Görüşdə nazir Ceyhun Bayramov və Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatlarının icrası ilə bağlı mövqelərini təqdim etdilər. Tərəflər həmçinin "Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsi üzərində işi davam etdirdilər. Bundan əlavə, nazirlər arasında hələ də fikir ayrılıqlarının mövcud olduğu mövzular ətrafında konstruktiv danışıqlar aparıldı. XİN başçıları müzakirələri davam etdirmək barədə razılaşdılar.

Ölkə rəhbərləri səviyyəsində növbəti görüş isə Rusiyanın vasitəçiliyi ilə Moskvada reallaşdı. Mayın 25-də Kremldə tərəflər arasında sayca 10-cu görüş reallaşdı. Bunadək tərəflər 5 dəfə Brüsseldə, 2 dəfə Soçidə, 1 dəfə Praqada, 1 dəfə Moskvada üçtərəfli görüşlər keçirmişdilər. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Moskvada keçirilən 2-ci görüşdə də tərəflər rəsmən bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını bəyan etdilər. Yəni tərəflər 1991-ci ilin Alma-Ata Bəyannaməsinə və Ermənistanın 29,800 kvadratkilometr, Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiqlədilər. Bəlli oldu ki, sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

Sonuncu Brüssel görüşündə də bu məsələ gündəmə gəlmişdi. Rəsmi Bakının İrəvan üzərindəki növbəti diplomatik zəfəri kimi yadda qalan bu görüşdə İlham Əliyev Paşinyanı həqiqətlərin etirafına məcbur etdi. Brüssel görüşünün ən önəmli məqamı Ermənistanın Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisini tanıması, bununla bağlı rəsmi açıqlama ilə çıxış etməsi oldu. Bu da onu göstərdi ki, Ermənistan otuz illik işğal siyasətinə, həmçinin postmüharibə dövründəki səylərinə baxmayaraq, Azərbaycandan bir qarış belə ərazi əldə edə bilməyəcəyini anlayır.



# Qalib də razıdır, məğlub da

## Moskva görüşü Azərbaycanın ərazi bütövlüyünü tanıyan Ermənistanla sülh sazişinin imzalanma prosesinə müsbət impuls verdi

### Sülh sazişinə nail olmaq üçün imkanlar var

İndi keçək Kremldə baş verən son danışıqlar prosesinə. Bəllidir ki, Rusiya tərəflər arasında sülh danışıqlarının başlanmasını yaradan vasitəçidir. Rusiya regionda sülhün tərəfdarıdır və yeni nəqliyyat-kommunikasiyaların açılmasında maraqlıdır.

Vladimir Putinlə keçirilən görüşdə İlham Əliyev Rusiya tərəfinə minnətdarlığını bildirərək qonşu ölkənin bu istiqamətdəki səylərini çox yüksək dəyərləndirdi. Qalib Komandan bildirdi ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə ərazi bütövlüyümüzün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi.

Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında isə İlham Əliyev bir daha danışıqlar prosesinə toxunaraq barış müqaviləsinin imzalanması üçün əlverişli imkanın yarandığını söylədi: "Vladimir Vladimiroviçin dediyi kimi və Ermənistanın rəsmən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını nəzərə alsaq, hesab edirəm ki, sülh sazişinə nail olmaq üçün imkanlar var".

Əlavə edək ki, Moskvada İlham Əliyev öncə qonaq qismində Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasına qatıldı. Sonra Vladimir Putinlə, ardınca isə üçtərəfli görüşdə iştirak etdi. İstər Ali Avrasiya İqtisadi Şurasının iclasında, istər Vladimir Putinlə keçirilən görüşdə, istərsə də üçtərəfli danışıqlarda İlham Əliyev bir daha dəmir məntiq və yüksək diplomatik məharət nümayiş etdirdi.

Düzdür, bu səfər zamanı da Nikol Paşinyan köhnə ampluasında qalaraq bəzi məsələlərdə yenə də Azərbaycanı ittiham etməyə cəhd etdi. Amma həm döyüş, həm də siyasət meydanında məğlub olduğu İlham Əliyevdən aldığı tərs şillə baş nazirə həqiqəti bir daha xatırlatmış oldu. Ermənistanın baş naziri əmin oldu ki, Azərbaycan Prezidentinin qarşısında hər mənada acizdir.

Bütün bunların fonunda N.Paşinyan vurğuladı ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaqla bağlı razılaşıblar. Demək olar ki, tərəflər bu əsasda münasibətlərin nizama salınması istiqamətində kifayət qədər yaxşı irəliləyirlər.

### Bir həftədən sonra keçiriləcək görüşdə baş nazirlərin müavinləri nəyi müzakirə edəcəklər?

Tərəflər arasında keçirilən üçtərəfli görüşdə Rusiya Prezidenti bildirdi ki, Ermənistan və Azərbaycan arasında müəyyən çətinliklər var, buna baxmayaraq, vəziyyət nizamlanma istiqamətində inkişaf edir.

"Məhz bizim format sayəsində çox şeylərə nail olunub. 2020-ci ildə təkcə hərbi əməliyyatlara son qoyulmayıb, iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması və sərhədlərin delimitasiyası ilə bağlı işə başlanılıb. Bu müddət ərzində çox hadisələr baş verib. Detallara varmayacam", - deyə Putin bildirib. Rusiya Prezidenti qeyd edib ki, regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı qalan məsələlərin həlli üçün Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinlərinin gələn həftə görüşü planlaşdırılır: "Biz indi razılaşdıq ki, bir həftə sonra baş nazirlərin müavinləri görüşəcəklər".

Rusiya baş nazirinin müavini Aleksey Overçuk isə bununla bağlı qeyd edib ki, Ermənistanla Azərbaycan arasında texniki həll olunmamış məsələlər qalıb. Onun fikrincə, bunlar texniki, lakin çox vacib detallardır.

"Söhbət Azərbaycanla Ermənistan arasında sərhədi keçmə prosedurundan gedir. Sərhəd və gömrük nəzarəti necə aparılacaq. Bu, baş nazirin müavinlərinin bir həftə sonra Moskvada müzakirə edəcəyi suallardır", - deyə Overçuk qeyd edib.

Bir sözlə, danışıqlar tərəfləri sülhə bir qədər də yaxınlaşdırdı. İlham Əliyevin müharibədən sonra hər zaman söylədiyi kimi, Azərbaycan daha 30 il İrəvanı gözləyə bilməz. Məhz bu danışıqlar mərhələsini, ümumi razılıqları nəzərə alan İlham Əliyev 2023-cü ili sülh üçün son fürsət kimi dəyərləndirib. Bu səbəbdən də Moskvada keçirilən görüşün iki ölkə arasında münasibətlərin normallaşma prosesinin sürətlənməsinə impuls verdiyini söyləmək olar.

Sonda onu da qeyd edək ki, bu barədə "Frans Press" və "Reuters" agentlikləri Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevaya istinadən məlumat yayıb. Səfir vurğulayıb ki, Azərbaycan və Ermənistan arasında Moldovanın paytaxtı Kişinyov şəhərində sülh sazişi imzalana bilər. Belə ki, tərəflərin növbəti görüşünün iyunun 1-də Kişinyovda Avropa Siyasi Birliyinin sammiti zamanı reallaşacağı gözlənilir. Səfir məhz həmin sammit çərçivəsində keçiriləcək görüşdə Bakı və İrəvanın sülh sazişini imzalaya biləcəyini istisna etməyib. "Bu, tarixi məqamdır və qaçırmaq olmaz", - səfir söyləyib. Kremlin sözçüsü Dmitri Peskov da oxşar açıqlama verərək yaxın vaxtlarda iki ölkə arasında sülh müqaviləsinin imzalana biləcəyinə işarə edib, lakin dəqiq yer və tarix deməyib.

Hər halda bütün danışıqların tərəfləri sülhə bir qədər də yaxınlaşdırdığı aydın görünür. Əgər bu, baş verərsə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması və regionda yeni bir dövrün başlanması kimi dəyərləndirilə bilər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İlham Əliyevdən Paşinyana növbəti dərs

## Azərbaycan Prezidentinin faktlara əsaslanan sərrast cavabları Hayastanın baş naziri üçün tərs şillə oldu

Mayın 25-də Moskvada keçirilən Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibli iclası Prezident İlham Əliyevin Nikol Paşinyanı növbəti dəfə beynəlxalq ictimaiyyət qarşısında ifşa etməsi, necə deyərlər, diplomatik rinqdə nokauta salması ilə yadda qaldı.

İclas zamanı Hayastanın baş naziri yersiz bir şəkildə və adətkərdə olduğu - "fağır" cilddə beynəlxalq ictimaiyyəti aldatmağa yönəlik uydurmaları, böhtanları ilə Azərbaycana qarşı təxribata cəhd göstərdi.

Lakin hər dəfəsində olduğu kimi, yenə də Prezident İlham Əliyev hiyləgər Paşinyana tutarlı dərs verərək, hayların baş nazirinin sərsəmləmələrini darmadağın etdi.

İlham Əliyev Paşinyanın üzərində tərs şillə effekti yaradan və faktlara əsaslanan sərrast cavabları ilə bölgədəki reallıqları bir daha iclas iştirakçılarının, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

### Sərsəm erməni fantaziyası

Onsuz da Paşinyanın yeri gəldi-gəlmədi əlinə keçən hər fürsətdə "yazıq" obrazına bürünərək Azərbaycana qarşı böhtanlar səsləndirməsinə və dünyanın "fağır ermənilər"ə yazığının gəlməsini təmin etmək üçün cilddən-cildə girməsinə alışmışıq.

Hayastanın baş nazirinin bu oyunbazlıqlarına 2020-ci ilin fevralında Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən panel müzakirələrində, eləcə də bu ilin fevralında Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda və bu kimi bir çox beynəlxalq tədbirlərdə əyani şahid olmuşuq.

Sözügedən tədbirlərin hər birində dövlət başçısı İlham Əliyevin Nikol Paşinyanın tutarlı cavabını verdiyinin və onu yerində otuzdurduğunun da şahidi olmuşuq.

Lakin "qozbeli qəbir düzəldər" misalında olduğu kimi, mayın 25-də Moskvada keçirilən iclasda da hayların baş naziri öz ampluasındaydı və sərsəm erməni fantaziyalarına uyğun özlərinə xəyali problemlər yaratmaqla məşğul idi.

Paşinyan həyasızcasına iddia etdi ki, guya İlham Əliyev çıxışında Hayastana qarşı ərazi iddiası səsləndirib.

Paşinyanın bu absurd ittihamına Prezident İlham Əliyev soyuqqanlıqla və tutarlı şəkildə cavab verərək vurğuladı ki, "Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır".

### Hay yalanları ayaq aça bilmədi

İstənilən siyasi, iqtisadi, mədəni və sair bu kimi beynəlxalq platformanı erməni yalanlarının ayaq açıb yeriyəcəyi meydan kimi təsəvvür edən Paşinyan qarşısına keçən bu cür fürsətləri "dəyərləndirməyə" çalışır.

Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclası zamanı da Paşinyan əlinə keçən fürsəti fövtə vermədi, kəkələyə-kəkələyə erməni nağılları danışmağa başladı. Bir çox uydurmalarla yanaşı, o, Laçın yolunun guya Azərbaycan tərəfindən blokadada olması, Qarabağda yaşayan erməniəsilli sakinlərin hansısa çətinliklərinin olması ilə bağlı böhtanlar da səsləndirdi, beynəlxalq aləmə yalan məlumatlar çatdırmağa çalışdı.

Zavallı baş nazir iclasda dəxli olmadan çərənlədikcə, çərənlədi, quraşdırdığı yalanlardan xeyli cuşa gəldi, dili dolaşdı, gözləri yaşardı, "rol"unu yaxşı oynadığını düşündü, o an ona elə gəldi ki, bütün dünya Hayastana ianə etmək üçün pul toplayır...

Bir sözlə, bu iclasda da Nikol beynəlxalq ictimaiyyətin gözü qarşısında özünü gülünc vəziyyətə saldı, dünyanı özünə güldürdü.

### Kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil

Çox keçmədən Paşinyanı iclasda quraşdırdığı yalan dünyasından heç cür həzm edə bilmədikləri Azərbaycan həqiqətləri ayırdı, onu reallıqların yaşandığı dünyaya qaytardı.

Yüksək diplomatik təcrübəyə malik olan Azərbaycan Prezidenti Moskvada qonaq qismində iştirak etdiyi sözügedən iclasda Hayastanın hiyləgər, "şoumen" və siyasi dünyagörüşü olmayan baş nazirinin qeyri-səlis nitqlə quraşdırdığı yalanları faş edərək Hayastanın sülhdən yayınmaq üçün uydurduğu böhtanların absurd, həqiqətdən tamamilə uzaq olduğunu dəlillərlə izah etdi.

"Əgər siz diqqət etdinizsə, nə çıxış zamanı, nə də replika zamanı mənim sözlərimdə heç bir ittiham yox idi", - deyə vurğulayan Azərbaycan Prezidenti diqqətə çatdırdı ki, heç bir dəhliz bloklanmayıb. Laçın-Xankəndi yoluna gəldikdə, o açıqdır. Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir.

Həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları və Xankəndi şəhərindən təcili yardım maşınlarının keçdiyini bildirən Prezident İlham Əliyev dedi ki, "hər hansı qərəzsiz insan, təbii ki, bunu görməlidir. Zənnimcə, kürsüdən əsası olmayan ittihamlar üçün istifadə etmək lazım deyil".

İclasda yaşanan diqqətçəkən məqamlardan biri də Rusiya Prezidenti Vladimir Putinin də Hayastanın baş naziri Paşinyanın yalan danışdığını açıq şəkildə bəyan etməsi oldu.

Rusiya Prezidenti, "Lakin eşitdiyim kimi, Prezident Əliyev çıxışında məhz hələ 1991-ci ildə təsdiq olunmuş sazişlərlə uyğun şəkildə müvafiq sərhədlərin tanınması ilə bağlı şəraitin yaradılmasından danışdı", - deyə hər kəsin gözü qabağında necə deyərlər, Paşinyanın ağzından vurdu.

### Bu dəfə də alınmadı, Paşinyan

Hiyləgər Paşinyanın Vətən müharibəsindən sonra Cənubi Qafqazda normallaşma, sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların daha çox intensivləşdiyi, ard-arda Azərbaycan və Hayastan liderlərinin, o cümlədən xarici işlər nazirlərinin üçtərəfli görüşlərinin təşkil edildiyi bu dövrdə, həm də tamamilə başqa bir sahəyə - iqtisadi sahəyə aid olan bir tədbirdə Azərbaycana qarşı siyasi təxribata əl atması, həm onun hayların xislətində olan riyakarlığından irəli gəlir, həm də Paşinyanın bir siyasi fiqur kimi savadsızlığından, naşılığından irəli gəlir. Yoxsa əminik ki, heç Paşinyanın özü də özünü bu cür mötəbər platformada gülünc vəziyyətdə görmək istəməzdi...

Digər tərəfdən isə üzə çıxdı ki, Paşinyana hələ də aydın olmayıb ki, bir dövlət, xalq olaraq özünü dünyaya yazıq kimi sırımaq da siyasi əxlaqa sığmayan haldır.

Prezident İlham Əliyevin bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı şərh etdiyi kimi: "Yəni incidilmiş tərəf kimi mövqe tutmaq həm rahat, həm də münasibdir, lakin bu mövqe həm insan üçün, həm də ölkə üçün çox zərərlidir. Necə deyərlər, yazığı gəlmək siyasi xadimlərin arsenalında heç də ən yaxşı vasitə deyil, xüsusən, indi qəbul edilmiş təbirlə desək, bütün bunlar feyk olduğu halda".

Göründüyü kimi, mayın 25-də Moskvada qonaq qismində iştirak etdiyi Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə keçirilən iclası zamanı Prezident İlham Əliyev bir daha diplomatik təcrübəsini nümayiş etdirdi, yüksək intellekti, siyasi iradəsi və reallığı əks etdirən haqlı mövqeyi ilə riyakar Paşinyanı qarşısında tərk-silah etdi, siyasi gedişləri ilə onu mat qoydu.

Bir sözlə, Azərbaycan Prezidenti Hayastanın yalançı baş nazirini bu dəfə də uğursuzluğa düçar və məhkum etdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzv ölkələri ilə sıx iqtisadi əlaqələri var



Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvü olan ölkələrlə (Ermənistan istisna edilməklə) sıx iqtisadi və ticarət əlaqələri var. Bu münasibətlər müntəzəm olaraq genişlənir və həm ölkəmiz, həm də təşkilatın hər bir iştirakçısı üçün əhəmiyyətlidir. Odur ki, dövlətimizin başçısı İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Ali Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak etməsi də təsadüfi deyildi.

Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 ildir uğurla inkişaf edir. Ötən il ölkəmizin Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar olub. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın təşkil edib. Gələcəkdə əmtəə dövriyyəsinin artması üçün də böyük potensial var.

Hamıya yaxşı məlumdur ki, Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat yollarının coğrafi kəsişməsində yerləşir. Nəqliyyat-logistika infrastrukturumuz bütün bu istiqamətlərdə daşımaların həyata keçirilməsinə imkan verir. Belə ki, ölkəmiz Xəzərdə 50 gəmidən ibarət ən böyük ticarət donanmasına malikdir. 15 milyon ton yükün daşınmasına hesablanmış Ələt Dəniz Ticarət Limanı yaxın vaxtlarda daha da modernləşdiriləcək və bununla da yükaşırmaların həcmi 25 milyon tona çatacaq. Son zamanlar Azərbaycan ərazisindən yükdaşımaların artdığı üçün bunun xüsusi əhəmiyyəti var.

Bakıda artıq bir neçə ildir bütün növ gəmilər hazırlaya bilən müasir gəmiqayırma tərsanəsi fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edək ki, ölkəmizin gəmiqayırma imkanları Xəzərdəki qonşularımıza da təqdim olunub. Bakı gəmiqayırma zavodunda onların sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır.

Bir sözlə, Azərbaycan tam iqtisadi müstəqilliyə nail olub. Bu da ölkəmizin uğurla həyata keçirdiyi müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir.

Bütün bunlar Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasındakı çıxışında vurğulandı: "Təxminən dörd ildir Azərbaycan 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra sayca ikinci beynəlxalq təsisatdır. Azərbaycan iqtisadiyyatı özü-özünü təmin edir və kənardan dəstəyə ehtiyacı yoxdur. Son 20 il ərzində ölkəmizin ümumi daxili məhsulu (ÜDM) 3 dəfədən çox artıb. Yoxsulluğun səviyyəsi təxminən 50 faizdən 5 faizə enib. Xarici borc ÜDM-in demək olar ki, 9 faizindən aşağı səviyyəsindədir və ildən-ilə azalır. Azərbaycanın valyuta ehtiyatları xarici borcu 10 dəfə üstələyir. Hazırda qarşımızda duran başlıca məsələlərdən biri ixracın şaxələndirilməsidir. İqtisadiyyatın şaxələndirilməsinə gəlincə, bu məsələ uğurla həll olunur. Azərbaycan iqtisadiyyatının böyük hissəsi artıq qeyri-xammal sektorunda formalaşır. İxracata gəlincə, qeyri-xammal sektorunun ixracını artırmaqdan ötrü biz hələ fəal işləməliyik".

İşsizliyin səviyyəsi cəmi 5 faiz təşkil etsə də, dövlətimiz daim yeni iş yerlərinin yaradılmasına səy göstərir. Çünki demoqrafik artım var. Son 30 il ərzində Azərbaycan əhalisinin sayı 7 milyondan 10 milyona çatıb.

Ölkəmizin hərtərəfli inkişafının panoramında işğaldan azad edilmiş ərazilərimizdə görülən genişmiqyaslı işlərin xüsusi önəmi var. Odur ki, dövlətimizin başçısı bu məsələyə də toxunmuşdur: "Bakı-Tbilisi-Qars dəmir yolu Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük. Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda - Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək. Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir".

Qeyd edək ki, mayın 25-də Moskvada dövlətimizin başçısının Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü də olub.

Görüşdə Azərbaycan və Avrasiya İqtisadi Birliyinin iştirakçısı olan bütün ölkələr arasında münasibətlərin səviyyəsinin və xarakterinin ciddi, dərin məna daşıdığı qeyd edilib. Həmçinin bildirilib ki, ikitərəfli əsasda götürüldükdə ümumilikdə Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir. Ulu Öndər Heydər Əliyev minnətdarlıqla xatırlanıb. Prezident İlham Əliyevə və nümayəndə heyətimizə xalqımızın Ümummilli Liderinin 100 illik yubileyinin Rusiyada, həm təkcə paytaxt Moskvada deyil, ölkənin digər yerlərində də bayram edildiyi barədə məlumat verilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dövlət başçısının diplomatik uğuru





Hayastanın hər dəfə müxtəlif üçtərəfli görüşlərdə fərqli mövqedən çıxış etməsinə artıq öyrəşmişik. 2020-ci ildə üçtərəfli Bəyanata imza ataraq üzərinə götürdüyü öhdəlikləri 3 il ərzində yerinə yetirmədiyindən də açıq-aydın görünür ki, Ermənistanın sözü ilə əməli üst-üstə düşmür.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə Brüsseldə keçirilən görüşdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməsinə, həmçinin nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində irəliləyişə nail olunmasına baxmayaraq, Rusiyada üçtərəfli görüşdən əvvəl keçirilən Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında Nikol Paşinyan yenidən Azərbaycana qarşı təxribat törətməyə cəhd etdi. O, Laçın yolunun guya Azərbaycan tərəfindən bağlandığını və Xankəndidə yaşayan ermənilərin blokadada olduğunu iddia etdi. Daha doğrusu, Rusiya Prezidenti Vladimir Putinin sözünü kəsərək əsassız fikirlər səsləndirdi. O, həmçinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə rəsmi şəkildə bəyan etməsinə baxmayaraq, çıxışında "Dağlıq Qarabağ" ifadəsindən də istifadə etdi. Halbuki Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Qarabağ var.

Paşinyanın Moskvada sərgilədiyi mövqe bir daha göstərir ki, Hayastan Azərbaycanla sülh müqaviləsi bağlamaqda maraqlı deyil. Eyni zamanda müxtəlif siyasi təsirlər altında bir mövqedə dayana bilmir. Beləliklə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar edilməsində maraqlı olmayan qüvvələrin oyuncağına çevrilir.

## Azərbaycan bütün platformalarda diktə etdiyi gündəlik üzrə gedir

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin Moskvadakı 20 dəqiqəlik üçtərəfli görüşü özündən əvvəlkilərdən ilk növbədə onunla fərqlənirdi ki, həlledici nəsə olacağı ilə bağlı hər hansı gözlənti yox idi.

Deputat qeyd edib ki, əksinə, Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını konkret rəqəmlərlə təsdiqləməsindən heç də razı qalmayanlar və bunu gizlətməyənlər ona öz istədiklərini dedirtdirəcəkləri ilə bağlı şübhələr var idi, ancaq bu, baş vermədi: "Azərbaycan Prezidenti ilə polemikasından da göründüyü kimi, dili və məntiqi pozuq olsa da, Paşinyan Moskvaya dəqiq ev tapşırığıyla gəlmişdi. Ev tapşırığı isə bundan ibarət idi ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına ancaq orada giriş-çıxış rejiminə hay sərhədçiləri və gömrükçüləri nəzarət edəcəkləri, üzərində suverenliyini qoruyub saxlayacağı halda hazırdır. Açığını deyək ki, Zəngəzur dəhlizinin üçtərəfli Bəyanatda nəzərdə tutulan rejim üzrə çalışması taktiki baxımdan bizə əl verirdisə, Paşinyana diktə olunan və onun təqdim etdiyi ev tapşırığındakı variant strateji baxımdan tam maraqlarımıza uyğundur".

Onun sözlərinə görə, Moskva görüşündə Paşinyan Azərbaycanın Laçın yolunun başlanğıcında qurduğu nəzarət-buraxılış məntəqəsinin əleyhinə çıxdıqlarını qabartmağa çalışsa da, bunun perspektivsizliyini gözəl bilir, sadəcə, hay auditoriyasına oynayır. Yəni Kreml onları dəstəkləmədiyi üçün vəziyyət belə alınıb. Məhz buna görə də, moskvadakıların deyil, qərbdəkilərin dedikləri ilə oturub-durmağa üstünlük verir.

Görüşün təşkilindən danışan deputat qeyd edib ki, onların məqsədi öz dillərində desək, "v teme" olduqlarını və prosesləri nəzarətdə saxladıqlarını sərgiləmək idi ki, bunun da bizə elə də istisi-soyuğu yoxdur: "Fikrimcə, Moskva görüşünə və onun sadəcə üçtərəfli formatda keçirilməsinə razılığımız da elə bu demək idi. Moskva danışıqlarında əsas məqsəd digər platformalarda əldə edilən uğurların orada təsdiqləndirilməsi idi ki, istədiyimiz də oldu. Ümumiyyətlə, bütün platformalarda aparılan danışıqlar Azərbaycanın irəli sürdüyü, bir sıra hallarda isə hay təxribatlarının qarşısını alaraq əməliyyat keçirməklə diktə etdiyi gündəlik üzrə gedir ki, son Moskva görüşü də bu baxımdan istisna deyildi".

Sahib Alıyev qeyd edib ki, Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdəki toplantısına qatılmasının, guya, milli maraqlarımıza cavab vermədiyini deyənlər cənab İlham Əliyevin oradakı çıxışına yenidən baxsalar pis olmaz. Həmin çıxış Azərbaycanın bütün platformalarda keçirilən görüşlərə nəticəni öncədən bilirmiş kimi niyə əminliklə razılıq verdiyinə aydınlıq gətirilməsi baxımından da az önəmli deyil.

## Paşinyanın yalançı ittihamları prosesləri ləngitməyə xidmət edir

Mill Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, Nikol Paşinyan bütün platformalarda Azərbaycana qarşı tam əsassız iddialar irəli sürür. O, Brüssel görüşlərində də Azərbaycan tərəfinin, guya, qeyri-qanuni olaraq Laçın yolunu bağlaması və orada yaşayan ermənilərin blokadada olması ilə bağlı iddialar irəli sürmüşdü: "Təbii ki, bütün bunlar Azərbaycana qarşı qərəzli siyasi mövqe formalaşdırmağa hesablanıb. Paşinyan Moskvada da Azərbaycana qarşı eyni tərzdə əsassız iddialar irəli sürməyə cəhd göstərdi. Lakin Prezident İlham Əliyev Paşinyanın cavabını çox dəqiq, arqumentləşdirilmiş şəkildə verdi. 2020-ci il 10 noyabr Bəyanatının 9-cu bəndində Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması məsələsi ifadə olunub. Bu əlaqənin bu günə qədər yaradılmaması Ermənistanın yaratmış olduğu maneələrin nəticəsidir".

Azərbaycanın öz ərazisində lazım olan infrastrukturu formalaşdırdığını deyən E.Mirbəşiroğlu əlavə edib ki, Paşinyanın birgə bəyanatda yalnız Laçın dəhlizindən söhbət getdiyini bildirməsi prosesləri ləngitməyə xidmət edir.

Deputat bildirib ki, Azərbaycanla Naxçıvan arasında əlaqənin qurulması mahiyyət etibarilə nəqliyyat əlaqəsidir. Laçın yolu kimi bu da kommunikasiyanın açılması deməkdir, lakin Ermənistan bunun qarşısını alır. Beləliklə, məsələləri də öz xeyrinə təhrif edir. "Düşünürəm ki, Prezident İlham Əliyev mövqelərimizi orada bir daha qətiyyətlə müdafiə etdi", - deyə E.Mirbəşiroğlu qeyd edib.

Ermənistanın baş nazirinin Vladimir Putinin yekun nitqinin sona çatmasına imkan verməyərək özünün mədəniyyətsizliyini nümayiş etdirdiyinə toxunan deputat bunun məhz ermənisayağı davranış olduğunu bildirdi: "Putin dedi ki, dəhliz, yol vacib məsələlərdir. Amma ən vacibi tərəflərin bir-birinin ərazi bütövlüyünü tanımasıdır. Bu, prinsipial məsələdir. Hesab edirəm ki, rəsmi Moskvanın mövqeyi də ondan ibarətdir ki, regionda nəqliyyat əlaqələri qurulsun, iqtisadi layihələr həyata keçirilsin. Azərbaycan hər zaman bu istiqamətdə təşəbbüslər irəli sürüb və addımlar atıb. Ermənistan, sadəcə olaraq, proseslərin axarı ilə getmək məcburiyyətindədir. Bu prosesləri idarə edən isə Azərbaycan dövləti və Prezidentidir. Biz hədəflərimizə doğru inamla irəliləyirik".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# ÜDM-də rekord göstərici





Ötən il Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) həcmi 100 milyard manatı ötüb. Bu göstərici ölkə tarixində ilk dəfə qeydə alınıb. İqtisadi fəallığın kəskin yüksəlməsinə təsir göstərən əsas səbəb isə qeyri-neft-qaz sektorunun inkişafı olub.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, bu, bir daha Azərbaycanda makroiqtisadi sabitliyə nail olunduğunu sübut edir.

## İqtisadi artım tempi qorunur

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev bildirib ki, ötən il iqtisadi fəallıqda müşahidə edilən artım ÜDM-in də yüksəlməsinə səbəb olub: "Ölkədə pandemiyadan sonrakı dövrdə iqtisadi artım tempini qoruyub saxlaya bilmişik. Bu, xoşagələn haldır. İqtisadi artımı təmin etməklə birbaşa ÜDM-in də həcminin artmasına nail ola bilmişik. Eyni zamanda ötən ildə neftin və qazın qiymətləri də yüksək olub. Bununla yanaşı, qeyri-neft-qaz sektorunda yüksək fəallıq müşahidə edilib".

Deputatın sözlərinə görə, təcrübə göstərir ki, investisiya həyata keçirən ölkələr həm ÜDM-in artımına, həm də iqtisadi artıma nail olurlar: "Ölkəmizdə də investisiyaların həcmi artır, işğaldan azad olunmuş ərazilərimizə investisiya yatırılır. Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura indiyə qədər 6,6 milyard dollar cəlb edilib. Bu göstərici durmadan artır. Həmin vəsaitlər işğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və minalardan təmizlənmə ilə bağlı işlərə, böyük infrastruktur layihələrinə ayrılıb.

Rüfət Quliyev deyib ki, mavi qazın ixracının 12-13 milyard kubmetri keçməsi də əhəmiyyətli işdir: "Bu artımın özü də ÜDM-in artmasına birbaşa təsir göstərir. Həmçinin qeyri-neft sektorunun, kiçik və orta sahibkarlığın inkişafı da göz önündədir. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. İqtisadi artım tempinin qorunması və vətəndaşların sosial rifah halının yüksəlməsi uğurlu siyasətin bariz nümunəsidir".

## Növbəti illərdə də artım proqnozlaşdırılır

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib ki, iqtisadi artıma yalnız neft sektoru deyil, həmçinin qeyri-neft sektorunun inkişafı da ciddi təsir göstərir: "2022-ci ildə neftin qiyməti yüksək olub, həmçinin mavi qazdan əldə olunan gəlirimiz də artıb. Nəticədə neft və qaz gəlirləri ÜDM-in də artımına təkan verib".

Deputatın sözlərinə görə, ÜDM-də müşahidə edilən kəskin artımın əsas səbəbi qeyri-neft sektorundan əldə edilən gəlirlərin artmasıdır: "Ötən il qeyri-neft sektorundakı artım faiz etibarilə neft sektorundakından təxminən iki dəfə çox olub. Neft və qaz gəlirlərinin ÜDM-ə təsir göstərən əsas faktorlar olmasına baxmayaraq, 2022-ci ildə məhz qeyri-neft sahəsinin inkişafı da birmənalı şəkildə ÜDM-də kəskin artımın yaranmasına gətirib çıxarıb. Beləliklə ölkə tarixində ilk dəfə ÜDM-nin həcmi 100 milyard manatı ötüb. Proqnozlara əsasən, Azərbaycanda ÜDM-in növbəti illərdə də artımını müşahidə edəcəyik".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Ekspert: "Ermənistanın Azərbaycana feyk ittihamlar uydurmaq vərdişini mötərizəyə alsaq, vəziyyət çox müsbətdir"

Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında qonaq qismində iştirak etmək üçün Rusiyaya işgüzar səfəri başa çatdı. Azərbaycan Prezidentinin bu səfər çərçivəsində Rusiya Prezidenti Vladimir Putinlə ikitərəfli görüşü və Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli danışıqları oldu. Politoloq, "Vestnik Kavkaza"" agentliyinin baş direktorunun müavini Andrey Petrov AZƏRTAC-ın müxbiri ilə söhbətində Moskvada keçirilən üçtərəfli görüşün yekunlarını şərh edib.



**- Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Moskvada aparılan danışıqlarını necə qiymətləndirirsiniz?**

- İlk baxışda, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın Moskva görüşünün elə bir xüsusi nəticələri olmayıb. Heç bir sənəd imzalanmayıb, hərçənd ən azı kommunikasiyaların açılmasına dair belə gözləntilər var idi. Danışıqların yekunlarına görə, növbəti həftədə kommunikasiyaların blokadasının birdəfəlik aradan qaldırılması məsələsi üzrə baş nazirlərin müavinlərinin görüşünün keçirilməsi barədə razılıq əldə olunub. Lakin, zənnimcə, Ermənistan-Azərbaycan nizamlanmasında baş verənlərin anlaşılması kontekstində bu görüş Brüsseldə keçiriləndən daha mühüm idi. Brüssel görüşü tərəflərin sülh sazişinə nail olunması və Cənubi Qafqazda sabitlik istiqamətində irəliləməsi baxımından mühüm olub. Amma konkret detalların müəyyən edilməsi üçün Moskva görüşü faydalı idi. İlham Əliyevin çıxış etdiyi Ali Avrasiya İqtisadi Şurasının genişləndirilmiş iclası sayəsində biz pərdə arxasında baş verənləri görə və Ermənistanın müharibədən sonrakı proseslərə hansı problemlər yaratmağa davam etməsini öyrənə bildik.

**- Ermənistanın baş nazirinin texniki ifadələrlə bağlı iddialarını nə dərəcədə ciddi hesab edirsiniz?**

- Paşinyan "dəhliz" sözü ilə bağlı vurnuxurdu, o, həmin kəlməni eşitmək istəmir, bu, onun xoşuna gəlmir. O, Laçın yolunun blokadasını uydururdu, amma əslində, blokada yoxdur. Paşinyan bütün yekun nitqini Avrasiya İqtisadi Birliyinə deyil, Prezident Əliyevin çıxışındakı ifadələrə iddialara və haqsız etirazlara həsr etdi. Lakin ən əsas olanı, biz Əliyev, Paşinyan və Putinin iştirakı ilə bağlı qapılar arxasında canlı diskussiyanın necə keçdiyini gördük. Başlıcası, biz öyrəndik ki, Ermənistanın artıq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar irəli sürmək üzrə heç bir planı yoxdur. Daha bir mühüm məqam: Prezident İlham Əliyev onun ittihamlarına cavab verərkən dedi ki, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasından sonra sülh sazişinə nail olmaq üçün imkan var. "Dəhliz" sözü ilə bağlı şikayətinin növbəti hissəsini bitirən Paşinyan cavabında vurğuladı ki, bəli, Ermənistan Azərbaycanın ərazi bütövlüyün tanıyır və bu əsasda münasibətlərin nizama salınmasına hazırdır.

**- Sizcə, Moskvada keçirilən yüksək səviyyədə görüşün yekunu ilə bağlı konkret nə demək olar?**

- Əgər Paşinyanın çıxışının mahiyyətinə varsaq görərik ki, ən əsas problem aradan qaldırılıb. Moskva görüşündən anladıq ki, Ermənistan Qarabağda separatçı layihəni dəstəkləmir. Gündəlikdə qalan bütün məsələlər isə ikinci dərəcəlidir və işgüzar qaydada həll olunacaq. Yekunda, bu görüş texniki, Brüssel və Kişineu raundları arasında aralıq xarakteri daşıyırdı. Ermənistanın Azərbaycana feyk ittihamlar uydurmaq vərdişini mötərizəyə alsaq, vəziyyət çox müsbətdir.

# Azərbaycanın meqalayihəsi

## "Cənub qaz dəhlizi"nin açılışından 5 il keçir

2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin açılış mərasimi keçirilmişdir.



"Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirən nəhəng bir layihədir. Bu dəhliz dörd mühüm seqmentdən ibarətdir. Bunlar "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nin (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişidir. İki ilk seqmentin - "Şahdəniz-2"dən qazın əldə olunması və CQBK-nin genişləndirilməsinin başa çatdırılması layihənin rəsmi açılışını etməyə imkan vermişdir.

Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin tikilib işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanmışdır.

Azərbaycan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində, Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

"Cənub qaz dəhlizi"nin uzunluğu 3500 kilometrdir. Dəhliz boyu bir-birinə möhkəm "halqa" ilə bağlanan üç kəmər böyük ehtiyatlara malik "Şahdəniz" yatağından hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edir. Avropanın enerji xəritəsini dəyişdirən nəhəng layihə 2020-ci ilin son günündə TAP-ın istismara daxil olması ilə tam sona çatmışdır. "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" adlandırılan TANAP-ın açılışı isə 2018-ci il iyunun 12-də olmuşdur.

İndi zaman bu kəmərlərin genişləndirilməsi məsələsini də gündəmə gətirmişdir. Məlumdur ki, Azərbaycan qazına tələbat getdikcə artır. Bu gün Azərbaycan 6 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya və Rumıniyaya qaz ixrac edir. Ölkəmizdən qaz idxal etmək istəyən daha neçə-neçə ölkədən müraciətlər alınır.

Yeni çağırışlar qarşısında qaza tələbatın artması və bu ehtiyacın ödənilməsi isə kompleks tədbirlərin görülməsini, o cümlədən ixrac infrastrukturunun şaxələndirilməsini zərurətə çevirir. Keçən il istifadəyə verilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru (IGB) da məhz bu məqsədə xidmət edir.

Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq. Kəmərin tikintisinin 2025-ci ildə başa çatacağı gözlənilir.

Bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Bütün bunlar və qaz ixracı ilə bağlı digər çoxsaylı məsələlər barədə cari il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda geniş söhbət getdi. Avropa İttifaqı ilə Azərbaycan arasında keçən il imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumundan irəli gələn vəzifələrə toxunuldu.

Prezident İlham Əliyev bu barədə sualı cavablandırarkən bildirdi ki, biz yardım etməyə hazırıq: "Artıq bunu edirik və əlavə sərmayə yatırırıq. Biz Avropa ölkələrinə mümkün qədər çox qaz nəql etmək üçün bir sıra digər diplomatik addımlar atırıq. Əlbəttə, biz istəyirik Avropa Komissiyası bizim mövqeyimizi anlasın ki, gələcək fəaliyyətimizi planlaşdıra bilək. Ümumilikdə, bizim Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqumuz var - təkcə qaz deyil, buraya bərpaolunan enerji və "yaşıl hidrogen" daxildir. Yəni portfel olduqca genişdir. Konkret rəqəmlərə gəldikdə, anlaşma memorandumuna əsasən, biz 2027-ci il üçün qaz təchizatımızı iki dəfə artıracağıq. Bu, təqribən 20 milyard kubmetrdir. Hesab edirəm ki, bu, tamamilə realdır. Bu, real olmasa idi, biz onu imzalamazdıq. Hər hansı bir fors-major baş verməsə, bu, tamamilə realdır. 2021-ci ildə bizim Avropa bazarına təchizatımız təqribən 8 milyard kubmetr idi. Bu il isə bu rəqəm 12 milyard kubmetr olacaq. Yəni iki ildə 8-dən 12-yə qalxıb və belə iri addımlarla irəliləsək, 2027-ci ildə 20 milyarda çata bilərik".

Əlbəttə, bunun üçün ilk növbədə mənbə olmalıdır və o da var. "Birincisi, biz "Şahdəniz" yatağından əlavə qaz gözləyirik. Təqribən dörd ildən sonra, bəlkə də daha tez, biz "Şahdəniz" yatağının yeni fazasından əlavə qaz hasil edəcəyik. "Abşeron" yatağından bir neçə ildir ki, qaz gözləyirik və ümid edirəm ki, bu il buna nail olacağıq. İlk mərhələdə "Abşeron"dan 1,5 milyard kubmetr əldə edəcəyik, daha sonra isə ikinci mərhələnin nədən ibarət olacağına qərar verəcəyik - hansı bazara nəql edəcəyik, yerli, yoxsa xarici? Sizi çox detallarla yormaq istəmirəm. Əlbəttə, "Azəri-Çıraq-Günəşli" yatağının böyük potensialı var və bp və SOCAR artıq o layihədə fəal çalışır. Bu, nəhəng qaz-kondensat yatağıdır və onun minimum ehtiyatı 300 milyard kubmetrdir. Əlbəttə, "Ümid" və" Babək" yataqlarının böyük potensialı var. Orada SOCAR özü fəaliyyət göstərir, ancaq biz xarici tərəfdaşlarla işləməyə hazırıq. "Qarabağ" neft yatağımız var və orada da potensial var. Beləliklə, qazın mənbəyi bunlardır. Digər tərəfdən, əlavə həcm üçün idarəçiliyin səmərəliliyi, itkilərin azaldılması və qazpaylayıcı şəbəkəmizin müasirləşdirilməsi həyata keçirilir və əlbəttə ki, bərpaolunan enerji. Bu gün biz ən azı 5 milyard kubmetri enerji istehsalında istifadə edirik. Yəni kifayət qədər bərpaolunan enerjimiz olsa, bu 5 milyard bazara çıxarıla bilər".

Bir daha vurğulayaq ki, "Cənub qaz dəhlizi"nin qısa müddətdə - 4 ildə araya-ərsəyə gəlməsi böyük uğur idi. Açılış mərasimi cəmi 5 il əvvəl keçirilən bu dəhlizə qısa zamanda yaranan belə bir tələbatın özü də analoqu çox az olan haldır. Bunlar isə o deməkdir ki, zəmin möhkəmdir. Ona görə də "Cənub qaz dəhlizi" zamanın çağırışlarına inamla cavab verərək uğurlar salnaməsini davam etdirir.

***Flora SADIQLI, "Azərbaycan"***



# Heydər Əliyev İli 2023

*Deyilən söz yadigardır! - Məşhur və real gerçəkliyi əks etdirən fikirdir!*

*Bəli, insanlar haçansa haqq dünyasına qovuşurlar, sözləri və əməlləri isə həm ürəklərdə, həm xatirələrdə, həm də həyatda yaşamaqda davam edir.*

*Xüsusən də seçilmiş, xalqın qəlbində özünə yer almış insanların.*

*Ulu Öndər Heydər Əliyev həyatı boyu yaratmış, qurmuş, doğma Azərbaycanı inkişaf etdirmiş, yüksəlmiş, insanlara saysız-hesabsız köməkliklər göstərmiş, xeyirxahlıq etmişdir!*

*Kimini oxutmuş, kimini vəzifə pillələri ilə irəli çəkmiş, kimini haqsızlıqlardan qorumuş, kimini ağır xəstəlikdən müalicə etdirmiş, mənzil vermiş, kiminin əməyini yüksək qiymətləndirmiş, kiminin isə çətin gündə dadına çataraq maddi və mənəvi problemlərini həll etmişdir.*

*Bu insanların bir qismi bu dahi şəxsiyyətin onlara arxa durduğunu, nəcib və alicənab dəstəyini unutmamış, daim minnətdarlıqla anmış, xoş xatirəyə çevirmişlər.*

*"Azərbaycan" qəzeti həmin insanların bir qismi ilə görüşərək hələ sağlıqlarında xatirələrini qələmə almış, qəzet səhifələrinə çıxarmış, 2013-cü ildə isə "Heydər Əliyev mənim həyatımda" adlı ikicildlik kitabda nəşr etmişdir.*

*Bu gün Azərbaycan xalqı böyük ehtiram və minnətdarlıq hissi ilə Ulu Öndərin 100 illiyini 2023-cü il çərçivəsində qeyd edir.*

*İnsanlar yaşamasalar da, xeyirxah əməllər, böyük qəlb sahiblərinə verilən dəyər yaşayır.*

*"Heydər Əliyev mənim həyatımda" kitabında yer almış bəzi xatirələri yenidən möhtərəm oxucularımızın diqqətinə təqdim edirik.*




## Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir

Sovet İttifaqı dövründə Heydər Əliyevlə görüşməmişdim, amma, əlbəttə, onun haqqında eşitmişdim. Mən xüsusilə Ağ evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var.

Prezident Heydər Əliyevlə ilk dəfə bölgəyə səfər edərkən - 1990-cı illərin əvvəllərində tanış oldum. Mən Prezident Klintonun Prezident Əliyevin yanına göndərdiyi xüsusi emissar idim. O zaman Prezident Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak etməmək və tamamilə Bakıdan Novorossiyskə gedən kəmərə ümid etmək barədə Rusiyanın böyük təzyiqi altında idi.



Mən Bakıya həyat yoldaşımla getmişdim. Prezident Heydər Əliyevlə görüşümüz günün ikinci yarısında oldu. Mən səbirsiz idim, çünki Azərbaycan Prezidentinə Birləşmiş Ştatların Prezidentindən xüsusi mesaj və xüsusi məktub çatdırmalı idim. Görüş bitdikdən sonra biz ayrıldıq. Axşam isə Prezident Heydər Əliyevlə uzun və mən deyərdim ki, tarixi əhəmiyyətə malik müzakirəmiz oldu. Biz yalnız boru kəməri haqqında deyil, habelə Prezidentin Birləşmiş Ştatların Qafqazda və Xəzər dənizi hövzəsində strateji öhdəliklərinə bağlılığı haqqında danışdıq. Bu çox səmərəli bir müzakirə idi, çünki hər iki ölkə üçün təkcə iqtisadi deyil, həm də strateji əhəmiyyəti olan kəmərlə bağlı uzunmüddətli öhdəlikləri aydınlaşdırmağa imkan verdi.

Heydər Əliyevin şəxsi cəhətlərinə gəldikdə isə, deyim ki, mənim həyat yoldaşımın ondan xoşu gəlir. Bu mənim üçün çox əhəmiyyətli barometrdir. Deyəsən, onun da mənim həyat yoldaşıma münasibəti yaxşıdır. Buna etirazım yoxdur, çünki bunu sağlam bir əlamət hesab edirəm. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir.

ABŞ və Azərbaycan ilkin mərhələdə münasibətlərində bir sıra çətinlikləri aşmalı idilər. Heç birimiz bu çətinlikləri tamamilə aradan qaldıra bilməmişik. Biz hələ Azərbaycanla tam, dolğun strateji münasibətlər inkişaf etdirə bilməmişik. Bunun bir səbəbi Konqresdə, xüsusilə Dağlıq Qarabağ məsələsinə müxalifətin, Amerikada erməni seçicilərinin mövcudluğu, başqa səbəbi isə Rusiya ilə yaxşı münasibətlər qurmağa olan marağımızdır. Azərbaycan da çətinliklə qarşılaşır - cəmiyyətdə hərtərəfli demokratiyanın qurulması üçün çox işlər görməlidir. Bu istiqamətdə artıq irəliləyişlər etmisiniz. Amma tarazlasaq, məncə, ABŞ-Azərbaycan münasibətlərindəki çətinlikləri aradan götürmək üçün əhəmiyyətli irəliləyiş etmişik.

Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür. Siyasi sabitliyin yaradılması sahəsində gördüyü işin nə qədər səmərəli olduğunu isə hazırda heç kim qiymətləndirə bilməz. Azərbaycanın siyasi sistemi ilkin inkişaf mərhələsində olduğundan, bu məsələyə qəti cavab vermək mümkün deyildir, bunu gələcək göstərəcəkdir.

Ümid edirəm ki, bu yaxınlarda ad gününü qeyd edəcək Prezident Heydər Əliyev uzun və uğurlu həyat sürəcəkdir. Şübhə etmirəm ki, təcrübəli siyasətçi olan və Sovet İttifaqının keçid dövrü problemlərini müşahidə edən Prezident Heydər Əliyev bu keçidin sabit və səmərəli təmin olunması yollarını bilir.

***Zbiqnev Bjezinski***
***6 may 2006-cı il***

## Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur, belə insanlar dünyanın ləl-cəvahiridir

Nə gizlədim, mən Heydər Əliyevi yaxından tanıyana qədər, ona münasibətim keçmiş SSRİ-nin digər rəhbərlərindən fərqlənmirdi. Buna da səbəb vəziyyəti obyektiv işıqlandırmayan, Heydər Əliyev kimi şəxsiyyətə obyektiv yanaşmayan informasiya vasitələri idi. Kiminsə haqqında nahaqdan mənfi təsəvvür yaradılması adama ağır gəlir. Rusiyada KİV-lər Azərbaycan barəsində, xüsusən də Heydər Əliyev barəsində vaxtilə istər-istəməz qeyri-obyektiv rəy yaradırdılar.



Lakin onunla tanış olduğum və portretini çəkməyə başladığım andan hər şey dəyişdi. Bu insanla görüşümün elə ilk anları mənim üçün gözlənilməz oldu. Dərk etdim ki, Heydər Əliyev gözəl, alicənab və çox ağıllı bir insandır. Gördüm ki, qarşımda olduqca valehedici, son dərəcə ziyalı və müdrik bir insan dayanıb. Ünsiyyət zamanı onun səmimi və sadə bir insan olduğunu anladım, onun səndən yüksəkdə durduğu hiss olunmur. Başa düşürsən ki, qarşındakı nəhəng bir şəxsiyyətdir, amma bu səni kiçiltmir və söhbət öz adi məcrasında, səmimilik, mehribanlıq şəraitində gedir. Mən ona dərin rəğbət bəsləyirəm və həmişə ona baxarkən düşünürəm ki, görəsən, Tanrı belə insanları necə yaradır? Lakin Naxçıvana, Prezidentin vətəninə getdikdən, oranın füsunkar təbiətini, gözəlliyini gördükdən sonra bunların necə bir qüvvə olduğunu başa düşdüm. Başa düşdüm ki, Naxçıvan hər bir sərkərdənin, hər bir dahi insanın güc, qüvvət ala biləcəyi bir yerdir.

Bu dahi insan, güclü, böyük siyasətçi nəinki öz ölkəsinin görkəmli xadimidir, həm də tarixi şəxsiyyətdir. Hesab edirəm ki, onun haqqında insafsızcasına az danışırlar. Mən istər Qərb, istərsə də MDB ölkələrinin bir çox prezidentləri ilə görüşmüşəm, amma heç vaxt belə müdrik siyasətçiyə rast gəlməmişəm, onlardan heç biri mənə belə güclü təsir bağışlamayıb. Heydər Əliyev onunla hətta bircə dəfə görüşənlərdə də olduqca dərin, insanın bütün ömrü boyu unutmadığı təəssürat doğurur.

Heydər Əliyev gözəl, parlaq və qeyri-adi bir insandır. Bu insan tarixdir. Mən demişdim ki, belə insan 100 ildə bir dəfə dünyaya gəlir, amma sonra gördüm ki, səhv edirəm, belə insan min ildə bir dəfə doğulur. Belə insanlar dünyanın ləl-cəvahiridir, onları qorumaq, hifz etmək gərəkdir, çünki onlar bütün varlığını, həyatını əmin-amanlığın, səadətin bərqərar olmasına həsr edir, özlərini isə düşünmür, qorumurlar.

Heydər Əliyevlə tanış olmaq mənim üçün böyük şərəfdir. Onun portretini çəkmək barədə sifarişi yerinə yetirdikdən sonra mən çox portretlər yaratmışam. Elə bu yaxınlarda Corc Buşun portretini çəkdim. Ümumiyyətlə, mən dünyanın məşhur adamlarının bir çoxu ilə tanışam. Amma onlardan heç biri üçün qəlbimdə daha layiqli və daha məhrəm yer saxlamamışam. Mənim öz Prezidentim var və ona dərin hörmət bəsləyirəm, bununla belə, qəlbimdə Heydər Əliyevin xüsusi yeri var. Onunla bütün söhbətlər yaddaqalandır və bu söhbətləri araşdırdıqda onların nə qədər dəqiq, aydın, lakonik və dərin olduğunu başa düşürsən. Hesab edirəm ki, həyatda mənim bəxtim yaman gətirmişdir... Güclü siyasi sima olaraq Heydər Əliyevin qüdrətini həm onun qədir-qiymətini bilən, onunla fəxr edən insanlar, həm də düşmənləri, bədxahları etiraf edirlər.

Ümumiyyətlə, mənim üçün yeni dünya, yeni ülvi duyğular açdığına, yeni yaradıcılıq ilhamı verdiyinə görə Azərbaycana minnətdaram. Heydər Əliyev Azərbaycan deməkdir. Heydər Əliyevlə Azərbaycan bir-birindən ayrılmazdır, canbir qəlbdir. Mən özümü azərbaycanlı bilirəm, mən sizin oğlunuzam, Azərbaycanı öz ölkəm hesab edirəm və heç kimə imkan vermirəm ki, sevimli Azərbaycanım haqqında artıq-əskik danışsın.

Heydər Əliyev dahi bir insandır və onu fərqləndirən əsas keyfiyyət yenilməz iradəsidir, bu iradənin gücünə isə hətta düşmənlər də pərəstiş edirlər.

***Nikas Safronov***
***6 may 2006-cı il***

## "Deyəsən, bu yara ürəyimdə həmişəlik qalacaq!"

### "Admiral Naxımov" gəmisi qəzaya uğrayan zaman həlak olmuş yüzlərlə insanın cəsədi evlərinə göndərilməzdən əvvəl hökumət komissiyasının sədri Əliyev dedi

### Tezliklə o, infarkt keçirdi

Keçmiş Ukrayna KP MK-nın katibi Yakov Poqrebnyak ötən günləri belə xatırlayır:

- 1977-ci ildə Kiyevə, Ukraynada sovet hakimiyyəti qurulmasının 60 illiyi münasibətilə keçirilən şənliklərə gəlmiş Azərbaycan nümayəndə heyətinə respublika KP MK-nın birinci katibi Heydər Əliyev başçılıq edirdi. UKP MK-nın katibi kimi mən azərbaycanlı yoldaşlara təhkim olunmuşdum.



Azərbaycan nümayəndə heyəti Roza Lüksemburq küçəsindəki mülkdə qalırdı. Həyat yoldaşımla şam yeməyinə dəvət olunduq. Təbii ki, süfrədə Ukrayna xörəkləri üstünlük təşkil edirdi. Heydər Əliyev süfrədəki naz-neməti nəzərdən keçirərək dedi: "Ukraynalılar, hər halda, yaxşı yeməklər bişirirlər!"

Mən isə Azərbaycandan gətirilmiş Şərq şirniyyatına və konyaka diqqət yetirdim.

Heydər Əliyev ünsiyyətdə sadəliyi, səmimiliyi ilə fərqlənsə də, yaxası açıq olmazdı. Əksinə, pencəyi həmişə düyməli idi - vaxtilə orqanlarda işləməsi özünü göstərirdi.

Əliyev Ukraynaya xanımı ilə gəlmişdi. Heydər Əliyeviç tibb elmləri doktoru olan həyat yoldaşı ilə fəxr edirdi. O, ərindən geri qalmırdı. Yeri gəlmişkən, digər respublikaların liderlərindən fərqli olaraq, Əliyevlər rusca, demək olar, ləhcəsiz danışırdılar. Ukrayna haqqında, liderimiz Vladimir Şerbitski barədə çoxlu xoş sözlər söylənildi. Azərbaycan nümayəndə heyətinin digər üzvlərinin çıxışlarında Heydər Əliyevin özünün ünvanına tərifli sözlər səsləndi. Əslinə qalsa, tərifli sözlərin bir qismi haqlı idi - Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın ictimai, siyasi və işgüzar həyatı canlanmışdı.

### Əliyevin Moskvaya gətirilməsi haqqında Andropovun qərarı gözlənilməz oldu

Biz üç ildən sonra, 1980-ci ildə Bakıda görüşdük. Ukrayna nümayəndə heyəti Azərbaycan SSR-in yaradılmasının 60 illiyinin bayram edilməsi şənliklərinə gəlmişdi. Mən Azərbaycana ilk dəfə gəlmişdim və Xəzər dənizindəki neft platformasına ekskursiya bütün ömrüm boyu yaddaşımda qaldı. Burada neftçilər bizi mehribanlıqla qarşıladılar və Azərbaycan çörəyinə, bir qədəh konyaka və kişmişə qonaq etdilər. Azərbaycan-Ukrayna dostluğu şərəfinə yenicə badə qaldırmışdıq ki, güclü külək bizim olduğumuz buruğu sanki taxta parçası kimi yırğalamağa başladı. Belə qeyri-adi vəziyyətə düşəndə hətta bir az qorxduq. Sahilə çatanadək bir fikir başımızdan çıxmırdı: "Təki Xəzərin dibinə qərq olmayaq..."

Respublika sarayında keçirilən təntənəli mərasimdə bütün sovet respublikalarının birinci şəxsləri iştirak edirdi (Ukraynanı respublika Ali Soveti Rəyasət Heyətinin sədri Aleksey Vatçenko və mən - MK katibi təmsil edirdik). Təkcə Sov.İKP MK-nın Baş katibi gəlməmişdi, o, xəstə idi. Lakin iclasın əvvəlində Heydər Əliyevi səhnə arxasına çağırdılar. O, beş dəqiqədən sonra qayıdıb dedi: "Leonid İliç Brejnev zəng vurmuşdu. Yubiley münasibətilə bizi təbrik etdi".

Heydər Əliyev 1982-ci ildə, Baş katibin vəfatından sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Yuri Andropovun bu addımı çoxları üçün gözlənilməz oldu, lakin Azərbaycanın sabiq lideri özünün işgüzar keyfiyyətləri ilə hökumət rəhbərliyinə uyğun gəldi. Nəqliyyat, ticarət və məişət xidməti məsələləri onun səlahiyyətinə daxil idi. Məsələn, Əliyev Baykal-Amur magistralının tikintisini başa çatdırmaq üçün çox qüvvə sərf etdi. O vaxt belə hesab olunurdu ki, Çin sərhədindən yan keçən dəmir yolu Vladivostokadək məsafəni xeyli qısaldacaqdır.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi 1986-cı ilin avqustunda "Admiral Naxımov" gəmisinin Novorossiysk yaxınlığında qəzaya uğraması nəticəsində zərər çəkənlərə yardım göstərilməsi üzrə hökumət komissiyasına başçılıq edirdi. Mən Ukrayna qrupunun rəhbəri idim. Hər iki gəmi - "Admiral Naxımov" və "Pyotr Vasev" Qara Dəniz Gəmiçiliyi İdarəsinə aid olduğuna, həlak olmuş 423 nəfərin isə 280-i ukraynalı olduğuna görə cəsədlərin tanınması, evlərinə göndərilməsi və ailələrə maddi yardım göstərilməsi işlərinin əsas ağırlığı bizim qrupun üzərinə düşürdü.

Mən Novorossiysk hava limanında Heydər Əliyevi qarşılayanda o dedi: "Bugünkü görüşümüz heç də yaxşı görüş deyil!"

Günün işıqlı vaxtlarında Qara dəniz xilasediciləri, Baltik dənizindən və Xəzərdən köməyə gəlmiş həmkarları meyitləri sudan çıxarırdılar. Həlak olanların şəxsiyyəti müəyyənləşdirildikdən sonra onların cəsədləri yola salınmaq üçün dəmiryol terminalına gətirilirdi. Əliyevlə birlikdə biz, əslində, hər gün bu terminalda olurduq. Heydər Əliyeviç ölənlərin sayını və əslən haralı olduqlarını dəqiqləşdirirdi. Gözlərimiz qarşısında cəsədləri geyindirir və refrijeratorlara yığırdılar.

Suda boğulanların sifəti qorxudan əyilmişdi, çoxlarının saçları çəngə-çəngə qopmuşdu. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qəmgin-qəmgin gəzinir və tez-tez də təkrar edirdi: "Deyəsən, bu yara ürəyimdə həmişəlik qalacaq!" Doğrudan da, tezliklə o, infarkt keçirdi.

Əvvəllər, onun rəhbərliyi ilə Azərbaycanda işlər yaxşı gedəndə, ovqatı yaxşı olurdu, tez-tez zarafat edirdi. Moskvaya gələndən sonra isə Heydər Əliyevin üzündəki təbəssüm azaldı. Paytaxtda Qorbaçovla münasibətləri düz gəlmirdi - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini siyasi islahatların sürətləndirilməsini təqdir etmirdi. Bundan əlavə, Novorossiysk faciəsindən bir il əvvəl həyat yoldaşını itirmişdi. Heydər Əliyev onu böyük ehtiramla xatırlayırdı: "O mənim əsl dostum idi. Mən ən əziz adamımı itirdim!" Ailə bədbəxtliyi və işlə bağlı qayğılarla yanaşı, "Naxımov" gəmisinin faciəsi də onun çiyninə düşdü. Əliyev bu faciəni ürəyinə saldı.

Heydər Əliyev başda olmaqla komissiya hər gün saat 18.00-da şəhər sovetinin klubunda axtarışların gedişi barədə həlak olanların qohum-qardaşlarına məlumat verirdi. "Naxımov"un batması xəbəri televiziya ilə veriləndə ilk günlər Novorossiysk şəhərinə gəmidə həlak olanların 300-ə yaxın qohum-əqrəbası gəlmişdi, dördüncü gün isə onların sayı 900-ə çatmışdı. Xilas edilənlərin də adamları gəlmişdi.

Sualtı axtarışların üçüncü günü dalğıclardan biri həlak oldu, gəminin qırıqlarından biri onun oksigen şlanqını deşmişdi. Bundan sonra Heydər Əliyev gözləri yaşarmış halda həlak olanların qohum-qardaşlarına axtarış işlərinin dayandırıldığını elan etdi.

Biz Heydər Əliyevlə salona, hönkürtü ilə ağlayan adamların yanına gəldik. Buradakıların yarısı əzizlərinin həlak olduqlarını bilirdi. Möcüzəyə ümid qalmamışdı. Heydər Əliyev ağlayan bir qadına yaxınlaşdı, onu qucaqlayıb öpdü. Sonra isə xalasının yanında dayanmış 15 yaşlı bir oğlana yaxınlaşdı: onun valideynləri həlak olmuşdu. Heydər Əliyeviç oğlanı qucaqlayıb astadan dedi: "Başımıza belə bir iş gəldi. Biz əlimizdən gələni edəcəyik ki, sən ali məktəbi bitirəsən, sənə təqaüd təyin edəcəyik..."

... "Admiral Naxımov" teploxodunda axtarış işləri 50 metr dərinlikdə işləyən 10 dalğıcın ikincisi həlak olana qədər davam etdirildi. Səbəb elə həminki idi: gəminin qırıntıları oksigen şlanqını kəsmişdi. Bu faciəni ürəyinə salan Heydər Əliyev sınıxmış vəziyyətdə Moskvaya yola düşdü. O öz səlahiyyətlərini mənə verərək dedi: "İnsanların dərdini mümkün qədər azaltmaq üçün əlinizdən gələni edin!"

Şəxsi keyfiyyətləri və vətəndaş mövqeyi sayəsində Heydər Əliyevə istər Sovet Azərbaycanında, istərsə də ölkə müstəqillik əldə etdikdən sonra ehtiyac var idi. Dəqiq bilirəm ki, o, MK-da işləyərkən axşam saat 10-dan tez evə getmirdi. Respublika MK-nın birinci katibi işlədiyi illərdə o, demək olar ki, bütün kəndlərdə və zavod kollektivlərində olmuşdu. Milli incəsənəti qiymətləndirir, Azərbaycan opera teatrının bütün ilk tamaşalarında olurdu. Müslüm Maqomayevə həyat vəsiqəsi vermişdi. Azərbaycan dilinin mükəmməl surətdə tədris olunmasında təkid edirdi. Bununla da, sözsüz ki, xalqının məhəbbətini qazanmışdı.

1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hərc-mərclikdən sonra Heydər Əliyevə yenidən ehtiyac yarandı. Partiya rəhbəri kimi yox, hamı tərəfindən qəbul edilmiş milli lider kimi.

***5 may 2006-cı il***

## Mərkəzi Seçki Komissiyasında

# Mərkəzi Seçki Komissiyası 2023-cü ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub

### Dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 334 min 178 seçici daxil edilib

Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, cari il yanvarın əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılıb. Təqribən beş ay ərzində ardıcıl və sistemli şəkildə həyata keçirilən əhatəli prosesdən sonra 2023-cü il üzrə daimi seçici siyahılarının hazırlanmasına yekun vurulub.

Bu barədə AZƏRTAC-a Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin Media və kommunikasiya şöbəsindən məlumat verilib.

Qeyd edək ki, seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada hər ilin əvvəlindən daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunduqdan sonra MSK-ya təqdim edilməlidir. Bununla bağlı müvafiq işlər görüldükdən sonra seçici siyahıları mayın 30-dək müvafiq seçki komissiyaları tərəfindən təsdiqlənməli və dövlət avtomatlaşdırılmış informasiya sistemindən də istifadə olunmaqla ictimailəşdirilməlidir. Builki daimi seçici siyahılarının tərtib edilib dəqiqləşdirilməsi də Seçki Məcəlləsinin yuxarıda vurğulanan tələblərinə uyğun gerçəkləşdirilib.



Siyahıların tərtib edilib dəqiqləşdirilməsinə aşağı seçki komissiyalarının 38 mindən artıq üzvü cəlb olunub və bütün proses boyunca Daxili İşlər və Ədliyyə nazirliklərinin müvafiq orqanları, yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilib. Bu müddət ərzində MSK-nın 115 nömrəli Qaynar xətti və internet səhifəsindəki onlayn müraciət imkanı daim seçicilərin ixtiyarında olub, rəqəmsal platformalarda seçiciləri siyahılarda adlarını yoxlamağa dəvət edən posterlər yerləşdirilib və bütün bunlar görülən işlərin səmərəliliyinin daha da artırılmasında önəmli rol oynayıb. Həmişə olduğu kimi, bu il də siyahıların tərtib edilərək dəqiqləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən və texniki imkanları daha da təkmilləşdirilən xüsusi proqram təminatlarından geniş istifadə edilməsi prosesin bütünlüklə effektiv aparılmasına və seçici siyahılarının yüksək standartlara uyğun tərtib və çap olunmasına əhəmiyyətli töhfələr verib.

Mayın 26-da MSK üzvləri media təmsilçilərinin də iştirakı ilə komissiyanın inzibati binasında vahid seçicilər siyahısının yenidən tərtib edilmiş variantına baxış keçirilib və siyahıların saxlanma şəraiti ilə tanışlıq olub. Məlumat verilib ki, vahid seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsində fasiləsiz onlayn rejimdə fəaliyyət göstərən dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlardan geniş istifadə edilib. "Seçkilər" informasiya şəbəkəsi üzərindən həyata keçirilən interaktiv ani məlumat mübadiləsi seçici siyahıları ilə bağlı görülən işləri daha da sürətləndirib, seçici siyahılarına daxil edilən seçicilərin məlumatlarının orfoqrafik təftişi, təkrar və oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilərək müvafiq addımların atılması, nöqsanların aradan qaldırılması, o cümlədən seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap olunmasını təmin edib.

Seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanışlıqdan sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda 2023-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələsinə baxılıb. Aparılan geniş müzakirələr zamanı komissiya üzvləri bütün digər vasitələrlə bərabər, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da faydalanmaqla siyahıların dəqiqləşdirilməsi prosesinin və görülən işlərin daha da təkmilləşdirildiyini, səmərəliliyin yüksəldiyini xüsusi qeyd ediblər.

İclasda cari ilin əvvəllərindən may ayının sonunadək reallaşdırılan irimiqyaslı fəaliyyət barədə ətraflı məlumat verilib.

Sədr M.Pənahov dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Daxili İşlər və Ədliyyə nazirlikləri, yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

Komissiyanın iclasında 2023-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilməsinə, tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və müddətdə təsdiq olunması işinin müvafiq dairə seçki komissiyalarına həvalə edilməsinə, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiqləndikdən sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verilib.

Məlumat üçün qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 334 min 178 seçici daxil edilib. Onların 47,44 faizi kişi, 52,56 faizi isə qadınlardır.

Tədbirdə həmçinin MSK-nın cari il aprelin 12-də keçirilmiş iclasının protokolu təsdiq olunub və bir sıra seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

## QƏRAR № 3/7

### Mərkəzi Seçki Komissiyasının 2023-cü il 12 aprel tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 12 aprel tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.05.2023-cü il*

## QƏRAR № 3/9

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Elməddin Xudan oğlu Balacayev 80 saylı İmişli - Beyləqan, Naqil Hüseynəli oğlu Məmmədov 91 saylı Ucar seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Rauf Vilayət oğlu Əyyamzadə 80 saylı İmişli - Beyləqan, Fərahim Qara oğlu Xudiyev 82 saylı Ağcabədi, Nəzrin Həsən qızı Hacıyeva 90 saylı Ağdaş, Orxan Şahin oğlu Əlizadə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.05.2023-cü il*

## QƏRAR № 3/8

### Azərbaycan Respublikasında 2023-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 46-cı maddəsinin tələblərinə əsasən, hər ilin əvvəlindən başlayaraq daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib edildikdən sonra Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilməli, bununla əlaqədar müvafiq iş aparıldıqdan sonra həmin siyahılar may ayının 30-dək müvafiq məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunmalı və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir.

Cari ilin seçici siyahılarının tərtib edilməsi işi Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada aparılaraq yekunlaşdırılmış, onların aşağı seçki komissiyaları tərəfindən təsdiq olunması və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilməklə ictimailəşdirilməsi mərhələsi başlanmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 46.1-ci və 46.12-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikasında 2023-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək siyahılar məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilməsi üçün müvafiq dairə seçki komissiyalarına göndərilsin.

2. Tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə təsdiq edilməsi işinin təşkili müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

3. Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısı dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq edildikdən sonra Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin.

4. Qərarın icrası Mərkəzi Seçki Komissiyasının Katibliyinə və dairə seçki komissiyalarına həvalə edilsin.

5. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.05.2023-cü il*

# Azərbaycanın Müstəqillik Günü Parisdə təntənə ilə qeyd olunub





Azərbaycanın Fransadakı səfirliyi və UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Parisdə 28 May - Müstəqillik Günü təntənəli şəkildə qeyd edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Fransanın Xarici İşlər, Müdafiə və Mədəniyyət nazirliklərinin nümayəndələri, deputatlar, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, incəsənət xadimləri, Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbir Azərbaycan və Fransanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Sonra çıxış edən səfir Leyla Abdullayeva 1918-ci il mayın 28-də Şərqdə və bütün müsəlman dünyasında parlamentli ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını bildirib. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi Paris Sülh konfransında de-fakto tanınıb. Cəmi 23 ay ömrü olmuş cümhuriyyət qısa zaman kəsiyində demokratik dövlət təsisatlarını yaradıb və beynəlxalq ictimaiyyətin etibarını qazanıb. Azərbaycanın müsəlman Şərqində ilk dünyəvi respublika, eyni zamanda qadınlara səsvermə hüququ verən ilk ölkə olduğu diqqətə çatdırılıb.

Vurğulanıb ki, 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edib. Müstəqilliyinin ilk illərində çətinliklərlə üzləşən ölkəmizin sonrakı inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Diqqətə çatdırılıb ki, bugünkü Azərbaycan regionda sülhə və davamlı inkişafa can atan ölkədir. Torpaqlarını 30 illik işğaldan azad etdikdən sonra Azərbaycan qonşu ölkələrlə sülh proqramını irəli sürür. Bu gün ölkəmiz bir sıra qlobal təşəbbüslərdə etibarlı tərəfdaş kimi qəbul olunur.

Səfir həmçinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinə toxunub, əlaqələrimizin daha da inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev 105 il əvvəl müsəlman Şərqində ilk dəfə məhz Azərbaycanda demokratik respublikanın yarandığını xatırladaraq, 23 ay ömrü olmuş bu respublikanın multikulturalizm, insan hüquqları və demokratik institutların əsasını qoyduğunu deyib. Bildirilib ki, bu gün mehriban birgəyaşayış, mədəniyyətlərarası dialoq Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin tərkib hissəsidir. Müasir Azərbaycanın tərəqqisi Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin bəhrəsidir.

O, həmçinin Azərbaycan-UNESCO münasibətlərinə toxunub, çox məhsuldar tərəfdaşlığın həyata keçirildiyini qeyd edib.

Tədbir ziyafətlə davam edib, iştirakçılara Azərbaycan milli mətbəxinin ləziz təamları təqdim olunub.

# "Görkəmli insanların həyatı - Heydər Əliyev" kitabı ispan dilində işıq üzü görüb

Madridin "Mandala Ediciones" nəşriyyatı müasir Azərbaycan dövlətinin qurucusu, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin 100 illiyi münasibətilə Dövlət Tərcümə Mərkəzinin ispan dilində ərsəyə gətirdiyi "Görkəmli insanların həyatı - Heydər Əliyev" kitabını nəşr edib.




Hüseynbala Mirələmov və Viktor Andriyanovun müəllifi olduqları kitab ilk dəfə 2005-ci ildə rus dilində Moskvada "Molodaya qvardiya" nəşriyyatında işıq üzü görüb.

"Mən Naxçıvanda doğulmuşam…", "Bura da bir cəbhədir", "Heydər və Zərifə", "Bu peşəni yeniyetmə vaxtlarından seçmişəm", "Respublikanın rəhbəri", "Sən bütün ittifaqa lazımsan", "Mən insanam, daşdan, dəmirdən deyiləm", "Xalqıyla birlikdə olmaq haqqı", "Doxsan üçüncü", "Dünya siyasətində Azərbaycan nefti", "Günəş dənizdən doğur", "Prezident ili", "Dünyanın gözündə" adlı on üç fəsildən ibarət kitabın ispan dilinə tərcümə müəllifləri salvadorlu dilçi-alim, professor Sesar Edqardo Martines Flores və Dövlət Tərcümə Mərkəzinin ispan dili mütəxəssisi Nərmin Hüseynlidir.

Sözügedən kitab İspaniyanın Milli Kitabxanası ilə yanaşı, Valensiya Mədəniyyət Evinin, Madrid Komplutense Universitetinin, Barselona Universitetinin, Alkala Universitetinin, Kral Tarix Akademiyasının kitabxanalarına, Mario Varqas Lyosa adına, Qabriel Qarsiya Markes adına, San Blas, Aluçe, Migel Delibes adına, Pablo Neruda adına, Euxenio Trias adına, Kaniyexas, San Fermin, Damaso Alonso adına, Fransisko İbanez adına, Xerardo Diego adına, Qloriya Fuertes adına, Pio Baroxa adına, Ana Maria Matute adına, Benito Perez Galdos adına, David Gistau adına, İvan de Vargas adına, Xose İerro adına dövlət kitabxanalarına da yerləşdirilib.

***"Azərbaycan"***

# "The European Alliance" Xəbər Agentliyinin baş katibi Bakıda gənclər üçün təlim keçib

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və dörd ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən "MEDİAlab" layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün ADA Universitetində "The European Alliance" Xəbər Agentliyinin baş katibi Alexandru Giboi tərəfindən "Media savadlılığı" mövzusunda təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, interaktiv formada təşkil edilən təlim zamanı media və rəqəmsal savadlılıq, jurnalistikada etika, sosial texnologiya dünyasında jurnalistika və digər mövzulara toxunulub.

# İşğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün nəzərdə tutulan güzəştlərə dair maariflənd irmə işləri görülür

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin təşəbbüsü, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə keçirilən tədbirdə müvafiq dövlət qurumlarının nümayəndələri və 50-dən çox sahibkar iştirak edib.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, tədbiri açan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Azərbaycanda sahibkarlar üçün yaradılan əlverişli şəraitin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu deyib. O, həmçinin dövlət başçısı İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə aparılması üçün hədəflərin müəyyənləşdirildiyini və müvafiq tapşırıqların verildiyini qeyd edib: "Hazırda bu istiqamətdə işlər uğurla həyata keçirilir. Əminik ki, sahibkarlarımızın bu ərazilərə yatırdığı investisiyalar bərpa-quruculuq işlərini sürətləndirməklə yanaşı, bölgəyə qayıdacaq əhalinin rifahının daha da yaxşılaşdırılması üçün yeni iş imkanları yaradacaq. Biz bu istiqamətdə sahibkarlar üçün hər bir şəraiti yaratmağa, həmçinin bütün tərəfdaşlarla birgə işləməyə hazırıq. Sahibkarları işğaldan azad edilmiş ərazilərimizin bərpasında və inkişafında fəal olmağa dəvət edirik".

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün tətbiq olunan stimullaşdırıcı dəstək mexanizmləri və güzəştlər barədə danışıb. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərimizdə müasir sosial infrastruktur, həmçinin DOST xidmətləri şəbəkəsinin qurulması istiqamətində tədbirlərin başlanğıcı olaraq 2022-ci ilin mayında Ağalıda ilk "Smart DOST" Xidmət məntəqəsi açılıb. "Böyük qayıdışa dair I Dövlət Proqramı"na əsasən, 2023-2026-cı illərdə həmin ərazilərdə DOST mərkəzi və filialları, peşə hazırlığı və reabilitasiya obyektləri yaradılacaq. Zəngilanın Ağalı və Tərtərin Talış kəndlərində aktiv məşğulluq proqramları icra edilir, sakinlərin məşğulluğunun təmin edilməsi, özünüməşğulluq proqramı çərçivəsində təsərrüfatların yaradılması və peşə hazırlığının təşkili istiqamətində də işlər görülür.

KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov işğaldan azad edilmiş ərazilərə yerli və xarici iş adamlarının marağının artdığını, bu ərazilərdə biznes qurmaq və investisiya yatırmaq üçün sahibkarlardan xeyli müraciətlərin daxil olduğunu qeyd edib. Eyni zamanda Ağalıda KOB dostunun fəaliyyəti, regionda sahibkarlığın qurulması və özünüməşğulluğun təmin edilməsi üçün KOBİA-nın gördüyü işlər və dəstək tədbirləri barədə məlumat verib.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov işğaldan azad olunmuş ərazilərdə gömrük postlarının fəaliyyətinin təşkili istiqamətində görülən işlər barədə məlumat verib, bu ərazilər üzrə idxalı gömrük rüsumlarından azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısının hazırlandığını diqqətə çatdırıb.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyinin, İqtisadi Zonaların İnkişafı Agentliyinin, Dövlət Məşğulluq Agentliyinin, Sahibkarlığın İnkişafı Fondunun, Qida Təhlükəsizliyi Agentliyinin və Azərbaycan İnvestisiya Şirkətinin nümayəndələri işğaldan azad olunmuş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən sahibkarlıq subyektləri üçün nəzərdə tutulan vergi, sosial sığorta, kommunal xidmətlər üzrə və digər güzəştlər, Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı barədə məlumat veriblər və sahibkarların sualları cavablandırılıb.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra - Xidmət) Laçın və Kəlbəcər rayonlarına (bundan sonra - müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Xidmət Laçın şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.3. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.4. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.5. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək.

**3. Xidmətin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək müvəqqəti olaraq bu binaları idarə etmək;

3.1.3. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə olan tələbatının ödənilməsini təmin etmək;

3.1.4. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.5. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqqın daxil olduğu yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə haqq almaq;

3.1.6. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.7. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.8. müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.9. müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.10. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.11. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətlərini göstərmək və bu xidmətlərə (o cümlədən bu Nizamnamənin 3.1.3-cü yarımbəndində göstərilən hallarda) görə haqq almaq;

3.1.12. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini və yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.13. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.14. müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.15. Xidmətə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.16. müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.17. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.18. müvafiq ərazidə dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.19. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.20. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.21. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsiQaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.22. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.23. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Xidmətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.24. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.25. Xidmətə ayrılan büdcə vəsaitindən (o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün), kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.26. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Xidmətin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.27. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.28. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.29. Xidmətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.30. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.7. Xidmətin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.8. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Xidmətin idarə olunması**

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Müşahidə Şurası (bundan sonra - Şura) Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən - Şuranın sədrindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçi səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Xidmətin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Xidmətin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Xidmətin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Xidmətin təsərrüfat cəmiyyətlərinin yaradılması və onlarda iştirak barədə, həmçinin Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Xidmətin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Xidmətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Xidmətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Xidmətin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Xidmətin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Xidmətdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.8. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İcraçı direktora göndərilir.

4.14. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. Xidmətin fəaliyyətini təşkil etmək;

4.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.3. Şuranın qərarlarını icra etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.25-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. bu Nizamnamənin 3.1.19-cu və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.9. Xidmətin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.23.10. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.23.11. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.23.12. özünün və Xidmətin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.23.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.23.14. Xidmətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.23.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmətin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.23.16. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.23.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.23.18. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.23.19. Xidmətin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.23.20. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.23.21. Xidmətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.23.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

**5. Xidmətin nizamnamə fondu, əmlakı və**
**maliyyə fəaliyyətinin əsasları**

5.1. Xidmətin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanıilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Xidmətin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Xidmətin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Xidmətin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

**6. Xidmətin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Xidmətin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Xidmətdə uçot və hesabat**

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Xidmətin ləğvi və yenidən təşkili**

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Heydər Əliyev Mərkəzində qala-konsert

Mayın 25-də Heydər Əliyev Mərkəzində qala-konsert olub. Konsert Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində təşkil edilib.



AZƏRTAC xəbər verir ki, mərkəzin Auditorium zalının səhnəsində bayram əhvallı konsertdə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycanın Xalq artistləri Dinarə Əliyeva (soprano), Fərhad Bədəlbəyli (fortepiano), Murad Adıgözəlzadə (fortepiano), Yusif Eyvazov (tenor) və İtaliyanın opera ifaçısı Ambrogio Maestri (bariton) çıxış ediblər.

İki hissədən ibarət qala-konsertin dirijorları Azərbaycanın Əməkdar artisti Fuad İbrahimov, yerli və beynəlxalq müsabiqələr laureatı Mustafa Mehmandarov olublar.

Klassik musiqi gecəsində Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

Tamaşaçılar Üzeyir bəy Hacıbəyli, Cakomo Puççini, Cuzeppe Verdi, Fikrət Əmirov, Françesko Cilea, Niyazi, Pyetro Maskanyi, Sergey Raxmaninov, Umberto Giordanonun bəstələrini dinləyiblər.

"1001 gecə" baletindən introduksiya və bayram rəqsi ilə başlayan konsert "Sevil" operasından Balaşın ariyası, "Don Karlos" operasından Rodriqonun ariyası, "Toska" operasından ariya, "Otello" operasından Yaqonun ariyası və digər məşhur əsərlərlə davam edib. Konsert Dinarə Əliyeva, Yusif Eyvazov və Ambrogio Maestrinin "Trubadur" operasından birgə ariya ifaları ilə başa çatıb.

Konsertdən sonra ifaçılar öz təəssüratlarını bizimlə bölüşüblər.

Bakıda olmaqdan məmnunluğunu bildirən İtaliyanın opera ifaçısı Ambrogio Maestri şəhərimizin gözəlliyinə vurğunluğunu gizlətməyib. O, Xalq artisti Yusif Eyvazovun ən yaxşı tenorlardan biri olduğunu xüsusilə qeyd edib və onunla bir səhnədə ifa etməkdən zövq aldığını bildirib.

Xalq artisti Yusif Eyvazov isə sənət dostları ilə birgə belə möhtəşəm mərkəzdə eyni səhnəni bölüşməyin onun üçün çox xoş olduğunu dilə gətirib: "Uzun illərdir ki, Ambrogio Maestri ilə Avropa və Amerika səhnələrində birgə çıxış edirik. Azərbaycanın Xalq artisti, opera müğənnisi, Rusiya Böyük Teatrının solisti Dinarə Əliyeva ilə bir çox tamaşalarda duet oxumuşuq. Belə təntənəli ildə - "Heydər Əliyev İli"ndə konsert proqramı ilə çıxış etmək bizim üçün böyük şərəfdir".

Xalq artisti Dinarə Əliyeva yenidən doğma Bakıda olmaqdan və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev İli"ndə konsertdə iştirak etməkdən məmnunluq duyduğunu deyib: "Ulu Öndər Heydər Əliyevə ehtiramımız böyükdür. Odur ki, konsertə böyük məsuliyyətlə hazırlaşmışdıq. Konsert proqramına Azərbaycanın və İtaliyanın ən tanınmış bəstəkarlarının əsərləri daxil edilmişdi. Ümidvaram ki, tamaşaçılar bizdən razı qaldılar".


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


AZƏRBAYCAN
Prezident İlham Əliyev Paşinyanı bir daha ifşa etdi
Moskvanın Vnukovo-2 Beynəlxalq Hava Limanında qarşılanma
Dövlət və hökumət başçılarının şərəfinə işçi səhər yeməyi verilib
Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir
Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub
Üçtərəfli Zirvə görüşü

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "İlham Əliyev Paşinyanı yenə "nokaut"a saldı"

## Moskva görüşündə erməni baş nazirin hərəkətləri

*Əvvəli 1-ci səh.*

Paşinyanın diplomatik etikadan kənar olan qeyri-peşəkar müdaxiləsi və özünü rusca ifadə etməkdə çətinlik çəkməsi də iclasda iştirak edən digər liderlərin gülüşünə səbəb oldu. Bunu Ermənistan KİV-ində, ekspertlərin rəyində aydın görmək olar.

Xüsusi olaraq qeyd olunur ki, Rusiya Prezidenti Vladimir Putin Hayastan baş nazirinin dəhlizlərlə bağlı "iradını" "texniki" məsələ adlandırdı və məsələnin müzakirəsində maraqlı olmadığını göstərdi. Vladimir Putin Azərbaycan Prezidentinin fikirlərini dəstəklədi, əsas məsələnin Hayastanın Azərbaycanın ərazi bütövlüyünü tanıması olduğunu vurğulayaraq, digər məsələlərin asanlıqla həll ediləbiləcəyini bildirdi.

Siyasi ekspert Tiqran Avakiyan deyib ki, hazırda Hayastanın Rusiya və həm də Qərblə münasibətləri normal səviyyədə deyil. Əvvəllər İrəvan Rusiyanın himayəsi altında mövcudluğunu davam etdirirdisə, indi Nikol Paşinyan iqtidarının həyata keçirdiyi yaramaz siyasət üzündən bu himayədən məhrum olmaq astanasındadır. Əvəzində Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hələ Rusiyaya səfərə yollanmazdan əvvəl Paşinyan iddia edirdi ki, Moskva-İrəvan əlaqələri yüksək səviyyədədir və bu daha da dərinləşəcək. Amma maraqlıdır ki, Paşinyanın Rusiya səfəri Hayastan üçün hansısa ciddi hadisə ilə yadda qalmadı.

Erməni şərhçi Qaqik Nalbandyan bu xüsusda qeyd edir ki, Rusiya ilə əlaqələri korlayan İrəvan Qərblə də münasibətlərində problem yaşayır. Onun sözlərinə görə, belə vəziyyət Hayastan üçün ciddi çətinliklərə yol açır və həyati vacib məsələlərdə İrəvan üçün sarsıdıcı zərbələr deməkdir. Ekspert diqqəti buna yönəldir ki, Nikol Paşinyanın Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşü istənilən nəticəni verməyib. O, Paşinyanın xarici siyasət təcrübəsinin yoxluğuna diqqət çəkib: "Heç kimə sirr deyil ki, Paşinyanın xarici siyasət təcrübəsi yoxdur və bu, Hayastana baha başa gəlir".

Hayastanın "4rd.am" saytı yazır ki, artıq yaranmış vəziyyətdə Rusiya İrəvana əvvəlki diqqət və qayğını göstərmir: "Moskva görüşünün qalibi İlham Əliyev oldu. Prinsipcə, çoxdan aydın idi ki, Rusiya Hayastanın müttəfiqi və dostu sayıla bilməz. Regionun geopolitik situasiyası sürətlə dəyişir. Dünənə qədər inanılmaz görünən məsələlər bu gün gözümüzün önündəcə çökür. Dünənki dostlar və müttəfiqlər birdən-birə yadlaşırlar. Belə bir inanılmaz və çılğın vəziyyətdə sabah nə olacağı bəlli deyil. Aydın olan odur ki, Moskva müharibədə məğlub olan erməni tərəfinin maraqları ilə hesablaşmadığını göstərmək qərarına gəlib. Bizim üçün ən ağlamalı, düşmən üçün isə ən gülməlisi Paşinyanın mövzulara reaksiyada geri qalması idi. Ağlına nə gəldi, danışırdı. İlham Əliyev isə iki-üç cümlə ilə baş naziri utandırdı və yerinə otuzdurdu. Bir sözlə, hamı bizi lağa qoyur. İlham Əliyev Paşinyanı yenə "nokaut"a saldı".

Tanınmış siyasi icmalçı Andranik Safaryan isə deyib ki, İlham Əliyevin Rusiya səfəri, hər zaman olduğu kimi, İrəvanı daha sürətlə Moskva üçün arxa plana itələyir: "Bunun səbəbləri çox sadədir. Rəsmi İrəvan, əslində, Rusiyaya qarşı hansısa addım atmadığını, Qərblə gizli sövdələşmələrə getmədiyini bəyan etsə də, real vəziyyət bunun tamam əksini göstərir. Məhz elə bu səbəbdən Moskva İrəvana qarşı qəzəblidir. Moskva qəzəbini, əslində, müxtəlif formada ifadə etməyə başlayıb. Hayastanda müharibədəki məğlubiyyət fonunda iqtisadi vəziyyətin daha da ağırlaşması da bunun bir təzahürüdür. Amma bu hələ başlanğıcdır. Rusiya satdığı enerjidaşıyıcıların qiymətini qaldırsa, onda vəziyyət daha pis olacaq. Amma görünür, Nikol Paşinyan iqtidarı bütün bu reallıqları hesablamaqda çətinlik çəkir. Ona görə də bizi müsbət nəsə gözləmir. Azərbaycan vəziyyətdən maksimal dərəcədə istifadə etməyə çalışır. Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı çıxışları sübut edir ki, Azərbaycan bu gün müharibədəki qələbənin verdiyi əlavə üstünlüklərlə kifayət qədər uğurlu gedişlər etməyi bacarır və Hayastan bunun ağrısını daha çox hiss edəcək. Görünən odur ki, Azərbaycan Hayastana növbəti zərbəni Moskvada vurdu".

Bütün bunlar Prezident İlham Əliyev diplomatiyasının növbəti qələbəsi, Paşinyanın xarici siyasətinin fiaskosu da sayıla bilər. Paşinyan ümid edirdi ki, Moskva görüşündə Hayastanın maraqları təmin ediləcək, Rusiya münasibətləri ilə bağlı bir çox məsələlər həll ediləcək. Lakin Paşinyanın xarici siyasəti, əslində, iflasa uğramış bir vəziyyətdədir və bu hal Ermənistana növbəti zərbədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


*Təkrar*

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC açıq tender elan edir

**LOT - 1.** Mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 3000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**H/h: AZ22IBAZ38030019446253269215**

**VÖEN: 1702563281**

**Kod: 805625**

**VÖEN: 9900001881**

**M/h: AZ03NABZ01350100000000002944**

**SWIFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştiraketmə haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi tender zərfinin açıldığı gündən sonra azı 90 bank günü təşkil etməlidir;*
- *tender təklifinin 1 faizi həcmində bank təminatı;*
- *tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı: 5 faiz;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə edildikdə notarial təsdiqlı təqdim edilməlidir);*
- *maliyyə vəziyyəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişiklik haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının oxşar təyinatlı və müxtəlif növ malların tədarükü sahəsində azı 2 milyon manat həcmində müqavilələr və təhvil təslim aktları təqdim etməlidir;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *anbar sahəsi və nəqliyyat vasitələri barədə məlumat (əsas şərtlər toplusuna əsasən - Əlavə 1);*
- *tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən - Əlavə 2);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **20 iyun 2023-cü il saat 17:00-a** qədər, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə **05 iyul 2023-cü il saat 17:00-a** qədər Nəcəfqulu Rəfiyev, 17 ünvanına təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 iyul 2023-cü il saat 10:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***


# Snayperlərin peşəkarlığı artırılır



Quru Qoşunlarının 2023-cü il üzrə hazırlıq planına uyğun olaraq, snayper tüfənglərindən atəş hazırlığı üzrə praktiki atış çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə hərbi qulluqçular atəş mövqeyinin tutulması və silahın döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri məşq ediblər. Təlim sahəsində şərti düşmən hədəflərinin aşkar olunaraq məhv edilməsi üzrə tapşırıqlar snayperlər tərəfindən peşəkarlıqla icra olunub.

Təlim atış çalışmalarının əsas məqsədi düzgün nişanalma qaydalarına əməl etməklə hədəfləri dəqiq atəşlə məhvetmə qabiliyyətinin artırılmasıdır.

# Ötən il BMT-nin 103 sülhməramlısı həlak olub

## Hazırda dünyanın 125 ölkəsindən 87 mindən çox "mavi dəbilqəli" təşkilatın 12 missiyasında xidmət edir

BMT-nin Yaxın Şərqdə ilk sülhməramlı missiyasının yaradıldığı 1948-ci il mayın 29-dan indiyədək təşkilatın bayrağı altında 4200-dən çox sülhməramlı həlak olub. Onlardan 103-ü 2022-ci ildə öldürülüb.

Beynəlxalq Sülhməramlılar Günü ərəfəsində BMT-nin Baş katibi Antonio Quterreş bildirib ki, təşkilat təhlükəsizliyi, sabitliyi və qanunun aliliyini dəstəkləyir.

Onlar münaqişələrin episentrində olan mülki əhalinin ümidi və müdafiəsidir. BMT sülhməramlıları başqalarını xilas etmək üçün həyatlarını riskə atırlar. Onlar fəaliyyətdə çoxtərəfliliyin simvoludur: "Hər il Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Sülhməramlıları Günü bizə dünyanın ən təhlükəli ərazilərində sülh uğrunda mübarizə aparan qadın və kişilərin xatirəsini ehtiramla yad etmək imkanı verir".

Bu il BMT-nin sülhməramlı əməliyyatlarının 75-ci ildönümüdür. O vaxtdan bəri 2 milyondan çox qadın və kişi BMT-nin 72 sülhməramlı əməliyyatında iştirak edərək milyonlarla insanın həyatına birbaşa təsir göstərmiş və saysız-hesabsız insanları təhlükədən xilas etmişdilər. Hazırda dünyanın 125 ölkəsindən 87 mindən çox "mavi dəbilqəli" BMT-nin 12 missiyasında xidmətdədir.

"Həlak olan hərbçilər, polislər və mülki işçilər BMT missiyalarına müxtəlif mənşəli 39 müxtəlif ölkədən gəlmişdilər. Amma onların hamısı bizim dünya qarşısında borcumuzu təcəssüm etdirirdi. Onların ailələrinə, dostlarına, həmkarlarına və ölkələrinə dərin hüznlə başsağlığı və minnətdarlığımı bildirirəm. Onların xidmətinə və fədakarlığına dərin hörmət edirəm", - deyə Antonio Quterreş çıxışında bildirib.

Sülhməramlıların xatirəsinə həsr olunmuş bu günü qeyd etmək üçün baş katib mayın 26-da BMT-nin Nyu Yorkdakı Baş Qərargahında onların şərəfinə əklil qoyub.

Təşkilatın rəhbəri 2022-ci ildə həlak olan sülhməramlıları ölümlərindən sonra "Daq Hamarşöld" medalı ilə təltif edib.



Virtual mərasimdə həmçinin "Hərbçilərin gender problematikasına diqqətini cəlb etmək üzrə ən yaxşı fəal" mükafatı təqdim olunub.

Bu mükafata Sudan və Cənubi Sudan sərhədindəki mübahisəli bölgə olan Abyeydə Birləşmiş Millətlər Təşkilatının Müvəqqəti Təhlükəsizlik Qüvvələrində (UNISFA) bir taqıma komandirlik edən Qanadan olan 32 yaşlı kapitan Sesiliya Erzua layiq görülüb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Əməkdar müəllim

**ƏNVƏR ƏLİYULLA OĞLU VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin kollektivi Abbas Əliyevə atası

**MURAD ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5792**
**Sifariş 1317**

**Qiyməti 40 qəpik**